

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan cəmiyyətini səciyyələndirən dəyərlər



12

# Əsas hədəf – Qarabağda Böyük quruculuq!

3



*İLHAM ƏLİYEV: "Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir,10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir"*

SƏS
№ 088 (6771)
20 may 2023-cü il.
Qiymət 60 qəpik

# "Sülhməramlılar çıxanadək sülh razılaşması imzalanmasa..."



*"Yəqin ki, bəli. İrəvan yenə də öz formalarını irəli sürə bilmədi, nəticə vermədi. Bunlar həqiqətən də daha çox Azərbaycanın mövqeyi məntiqində formalaşıb. Lakin Avropa İttifaqı isə yenə də açıq şəkildə vəziyyəti dəyişmədi və açıq şəkildə Bakının qəti mövqeyinin əleyhinə getdi..."*

5

## Bankların bağlanması əmlaklara necə təsir edəcək?



16

## İrandan badalaq



14

## Ali təhsilli olmaq üçün niyə dəridən-qabıqdan çıxılır?



7

## Cenk Tosun daha 3 il "Beşiktaş"da!



16

## Qida terroruna qarşı ən effektiv mübarizə üsulu

*Dünyada kolbasa məhsullarının istehlakı ildən-ilə artır. Ərzaq qiymətlərinin artması bir çoxlarını öz ərzaq səbətinə yenidən baxmağa vadar etsə də, emal olunmuş ət məhsulları öz mövqelərini itirmir. Bu, gündəlik həyatda sürətli qəlyanaltı və...*



14

# Salome Zurabişvili: “Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan özünü qlobal miqyasda mühüm dövlət kimi təsdiqlədi”



***Prezident Heydər Əliyev müasir Azərbaycan dövlətinin formalaşmasında mühüm rol oynamış görkəmli dövlət xadimi idi. Məhz onun uzaqgörənliyi güclü və firavan dövlət quruculuğunun əsasını qoydu. AZƏRTAC xəbər verir ki, bu fikirləri Gürcüstan Prezidenti Salome Zurabişvili Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda ifadə edib.***

“Bütün ölkə üçün ümid çırağı olmuş atanızın Azərbaycan xalqının firavanlığı naminə gördüyü işlər və göstərdiyi səylər gələcək nəsillərin yaddaşında qalacaq, daim onların ilham və qürur mənbəyi olacaqdır”, - deyə Gürcüstan Prezidenti vurğulayıb.

Məktubda qeyd olunur ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan özünü qlobal miqyasda mühüm dövlət kimi təsdiqlədi: “O, ölkələrimiz arasında əlaqələrin inkişafında həlledici rol oynayıb. Gürcüstan Azərbaycanla möhkəm dostluğu və tərəfdaşlığı yüksək qiymətləndirir. Biz xalqlarımızın firavanlığı naminə bu əlaqələri daha da dərinləşdirməyə hazırıq”.

# “Ermənistanın sürətlə silahlanması yeni təhlükələr yaradır”



## *Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Səfir, ilk növbədə, Azərbaycanda Ulu Öndərin anadan olmasının 100-cü ildönümünün qeyd edildiyi bir dövrdə ölkəmizə gəlməsindən böyük məmnunluq hissi keçirdiyini bildirib. O qeyd edib ki, görkəmli şəxsiyyət Heydər Əliyevin və Prezident İlham Əliyevin baxışları belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan çiçəklənən, multikultural və çox güclü iqtisadiyyata malik ölkə qurmaq yolundadır.

Hazırda Azərbaycanın Qoşulmama Hərəkatına, Hindistanın isə Böyük 20-liyə və Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik etdiyini vurğulayan səfir məmnunluq hissi ilə bildirib ki, ölkəsi Azərbaycanın ilk 5 ticarət tərəfdaşı sırasındadır və ötən il qarşılıqlı ticarətin 155 faiz artması bunun yaxşı göstəricisidir.

Sridharan Madhusudhanan bildirib ki, Hindistanın da güclü iqtisadiyyata malik olması nəzərə alınaraq ölkələrimiz üçün iqtisadi əməkdaşlığın genişlənməsi baxımından böyük potensial var. O, bu xüsusda neft sənayesi və əczaçılıq sahələrini qeyd edib. Eyni zamanda, səfir Azərbaycanda hökm sürən multikulturalizmin Hindistan üçün çox cəlbedici olduğunu deyib, humanitar sahədə də əlaqələrimizin genişləndirilməsinin önəmini bildirib.

Diplomat turizm sahəsində əməkdaşlığa toxunaraq, Azərbaycana xeyli sayda hindistanlı turistin səfər etməsinin, xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olmasının, ölkəmizdə çox sayda tarixi abidənin mövcudluğunun turizm sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaratdığını bildirib. Səfir paytaxtımızda qədim, tarixi binalarla yanaşı, modern üslubda inşa edilmiş tikililərin də xoş təəssürat hissi doğurduğunu deyib.

Sridharan Madhusudhanan informasiya texnologiyaları, energetika, təhsil, ekologiya və digər sahələrdə əməkdaşlığın həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Prezident İlham Əliyev Ulu Öndərin müasir Azərbaycan dövlətçiliyinin banisi və ölkəmizin inkişafının təminatçısı olduğunu vurğulayaraq qeyd edib ki, Ümummilli Lider prezidentlik fəaliyyətinə başlayarkən Azərbaycanın torpaqları ermənilər tərəfindən artıq işğal olunmuşdu, bu işğalın nəticəsində bir milyon soydaşımız tarixi yurdlarından didərgin düşmüşdü, işğal altında olan ərazilərimiz darmadağın edilmişdir. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədi ərazi bütövlüyümüzün və müdafiə qabiliyyətimizin təmin edilməsi, güclü dövlət və iqtisadiyyat qurmaq idi. Dövlətimizin başçısı vurğulayıb ki, iki il yarım əvvəl Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və beləliklə, Ümummilli Liderin arzu və tapşırıqları həyata keçirildi.

Azərbaycan Prezidenti qeyd etdi ki, 30 illik işğal dövründə xalqımız humanitar fəlakətlə üzləşmişdir, bir milyon soydaşımız evsiz-eşiksiz qalmışdır. Bu fakt Azərbaycanın inkişafı üçün böyük əngəllər törədirdi. İndi - torpaqlarımızın işğaldan azad edildiyi bir dövrdə ölkəmiz bütün sahələrdə böyük potensiala malikdir. İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Vətən müharibəsində əldə olunan Qələbədən sonra Azərbaycan xalqı qürur hissi ilə yaşayır və bu, özünü bütün sahələrdə göstərir.

Azərbaycan Prezidenti, eyni zamanda vurğulayıb ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd edib ki, əgər doğrudan da Ermənistan Azərbaycan ilə sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Azərbaycan Prezidenti vurğulayıb ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik məsələsinə toxunaraq ölkəmizin sədrliyi dövrünün bu Hərəkatın institusional inkişafı üçün çox səmərəli bir dövr olduğunu bildirib. Dövlətimizin başçısı qeyd edib ki, məlum olduğu kimi, bununla bağlı Azərbaycanın irəli sürdüyü bir sıra mühüm təşəbbüslər uğurla həyata keçirilib. Azərbaycan Prezidenti bundan sonra da Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın güclənməsinin, ölkələrin ərazi bütövlüyü və suverenliyinin, məlum Bandunq prinsiplərinə sadiqliyin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev Hindistanın Qoşulmama Hərəkatının əsasını qoymuş dövlətlərdən biri olduğunu xatırladaraq, bu təsisatın yarandığı dövrdən bəri müxtəlif inkişaf yolu keçməsinə baxmayaraq, onun gələcəkdə qlobal siyasətdə mühüm amilə çevrilməsinin önəmini bildirib.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanın uzun illər bu təşkilatda dialoq tərəfdaşı olduğunu, ötən il isə bu təşkilatın Özbəkistanda keçirilmiş sammitində yüksək səviyyədə iştirakımızı önəmli hadisə kimi dəyərləndirib. Söhbət zamanı mədəniyyət, nəqliyyat, o cümlədən Şimal-Cənub dəhlizi sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər də müzakirə olunub.

# Moskvada Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılıb



***Mayın 19-da Rusiya xarici işlər naziri Sergey Lavrovun dəvəti ilə Moskvada Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar aparılıb. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov və Ararat Mirzoyan Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatlarının icrası ilə bağlı mövqelərini təqdim ediblər.***

Tərəflər “Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” saziş layihəsi üzərində işi davam etdiriblər. Tərəflər arasında hələ də fikir ayrılıqlarının mövcud olduğu mövzular ətrafında konstruktiv fikir mübadiləsi aparılıb.

Nazirlər Azərbaycan və Ermənistan arasında danışıqların təşkilinə görə Rusiya tərəfinə minnətdarlıqlarını bildiriblər. Tərəflər müzakirələri davam etdirmək barədə razılığa gəliblər. Nazirlər, həmçinin Rusiyanın xarici işlər naziri Sergey Lavrovla da ayrıca görüşlər keçiriblər.



# Əsas hədəf – Qarabağda Böyük quruculuq!

*İLHAM ƏLİYEV: "Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir,10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir"*

***Bu gün 100 illik yubileyini qeyd etdiyimiz Ulu Öndərin, xalqımızın, dünya azərbaycanlıların ən ümdə arzusu həyata keçmişdir. Bəli, bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq. Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirdi kibütün bu işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır: "On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir".***

Bəli, Qalib, Qurucu liderimiz, Prezident İlham Əliyev cənablarının birbaşa rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurumuz başdan qurulur, gün keçdikcə tarixi diyarlarımıx cənnətə çevrilir.

### BÖYÜK DÖVLƏTLƏRİN BIR NEÇƏ İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİKLƏRİ İŞLƏRİ AZƏRBAYCAN CƏMİ 2 İLDƏ REALLAŞDIRIB

Bəli, bu gün Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək görərik ki, bəlkə də, böyük dövlətlərin bir neçə il ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 2 ildə reallaşdırıb. Hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elekttik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturların yaradılması dünyanın diqqətini cəlb edir. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Prezident İlham Əliyev cənablarının noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı da bir daha deyilənlərin təsdiqidir. Sərəncamda göstərilir ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, proqramın prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Sənədin hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Sənəddə, ilk növbədə, bütövlükdə Şərqi Zəngəzur və Qarabağın təhlükəsiz bir zonaya çevrilməsi hədəflənir ki, bu, həm də ciddi geosiyasi hadisə hesab olunmalıdır.

### BÜTÜN BU QURUCULUQ İŞLƏRİNİN TƏMƏLİNDƏ AZƏRBAYCAN XALQININ MARAQLARI DAYANIR

Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır: "Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək".

Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin və bütün Azərbaycan xalqının inamını etibarını qazanaraq son 20 illik prezidentlik fəaliyyəti müddətində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur. Prezident İlham Əliyev həmişə çıxışlarında "mənim sözüm imzam qədər qüvvətlidir",-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.

Hər bir vədin konkret əməli işi ilə təsdiqləyən Azərbaycan Prezidenti İlham Əliyevin Qələbəmizin Zəfərindən ötən iki il ərzində işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində təməlqoyma mərasimində iştirak etdiyi yeni sosial obyektlərin say tərkibinə, icrasına başlanan infrastruktur layihələrinə, imzalanan Fərman və sərəncamlara, təsdiqlənən Dövlət proqramlarına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir!

Bəli, qələbəmizdən iki il keçməsinə baxmayaraq, dövlət başçımızın dediyi kimi: "Bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma, eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tender prosedurları keçməlidir, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək. İctimaiyyətə müntəzəm olaraq məlumat verilməlidir və veriləcək".

### ŞUŞADAN XALQA HESABAT – "TAPŞIRIQ YERİNƏ YETİRİLDİ. MƏRUZƏ EDİR ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV!"

Şuşada Prezident İlham Əliyevin xalqa müaraciəti fonunda bir daha bəlli oldu ki, 44 günlük müharibə və Qələbə Zəfəri ulu öndər Heydər Əliyevin, eləcə də xalqımızın əsas arzusunun yerinə yetirilməsidir.

Bəli, bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manee ola bilməz",-deyən Azərbaycan Prezidenti İlham Əliyev hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz. Bu gün - 30 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub.

Bütün bunlara nail omaq isə daim xalqın son ümidi olan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu və ölkənin hərtərəfli inkişaf siyasətinin uğurla davam etdirilməsi 2020-ci ildə 44 günlük Vətən müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazılan qələbənin əldə edilməsində başlıca rol oynadı. Və Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin "Dəmir Yumruq" siyasəti ilə Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə düşməni məhv etdi. Beləliklə, torpaqlarımızın işğalına son qoyuldu.

Xalqa müraciətində Prezident İlham Əliyev bildirmişdir bu xüsusda qeyd edir: "Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər Xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Bəli, bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində genişmiqyaslı işlər görülür. Dövlətimizin başçısı İlham Əliyev ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Qarabağın tacı, bütün türk dünyasının mədəniyyət paytaxtı Şuşadan müraciətində də xüsusi qeyd etdi ki, bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır: "Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik".

Bir sözlə, Müzəffər Ali Baş Komandan İlham Əliyev mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Qarabağın tacı, bütün türk dünyasının mədəniyyət paytaxtı Şuşadan müraciətində dediyi kimi: "Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək".

***RƏFİQƏ KAMALQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

ARAŞDIRMA

# Qəbul imtahanları: abituriyentləri yenə problemlər gözləyirmi?..

***2022-2023-cü dərs ili artıq sona çatmaq üzrədir. Bir dərs ili də təhsil tarixinin arxivinə yollanmaqdadır. Lakin bu elə bir arxivdir ki, orada minlərlə vətəndaşın biliyinin, qabiliyyətinin göstəriciləri saxlanır. 11 illik təhsil sistemində nə qazanmışıq, nəyi necə dərk etmişik, elmləri hansı səviyyədə öyrənmişik və göstəricilərimiz necədir, bax, bu arxivdə onların hər biri yaşamaqdadır.***

Müstəqil həyata qədəm qoyan gənclər arxivlərdə kağız üzərində olan göstəriciləri beyinlərində özləri ilə birlikdə ölkəmizin, bəzən xarici ölkələrin təhsil ocaqlarına daşıyır, orta təhsil biliyini ali məktəblərdə daha da təkmilləşdirir və ölkəmiz üçün savadlı insanlara çevrilirlər. Əlbəttə, bizim belə dünyagörüşlü, savadlı, bilikli gənclərə ehtiyacımız çoxdur.

Budur, artıq builki buraxılış siniflərinin imtahanlarının birinci mərhələsi iki ay əvvəldə qaldı. Onlar imtahan verərək həm orta məktəbi bitirmələri haqqında attestat üçün biliklərini nümayiş etdirdilər, həm də seçdikləri ixtisaslar üzrə imtahanların bir qismini ödəmiş oldular. Buraxılış imtahanlarında narazılıqlar da çox oldu. Abituriyentlər bəzi sualların anlaşılmaz olduğunu, bəzilərinin yarım saatdan çox vaxt aldığını, bizi sualların isə mart ayına qədər olan dərs proqramında keçilmədiyini iddia etdilər. Aid qurumlar isə bildirdi ki, xeyr, dərs proqramından kənar heç bir sual imtahanlara salınmayıb. Nə isə ki, imtahan verənlər əziyyət çəkdiklərini hələ də bildirir, ballarının az olmasına, istədikləri səviyyəyə yüksələ bilmədiklərinə bütün bunların səbəb olduğunu deyirlər.

Artıq ikinci turun da zamanı gəlib yetişdi. Abituriyentlər mayın 20-dən ikinci tur imtahanlara başlayır. Belə ki, Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən mayın 20-də III ixtisas qrupu, mayın 21-də isə II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək. DİM-dən bildirilib ki, mayın 21-də III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə də imtahan keçiriləcək. İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq.

Digər qrupların da imtahanları ardıcıllıqla keçiriləcək. Abituriyentlərə uğurlar diləyir, buraxılış imtahanlarında olduğu kimi, problemlərlə üzləşməmələrini arzulayırıq. Və bir qədər buraxılış imtahanları barədə danışaq.

## Buraxılış imtahanları: rəqəmlər nədən danışır?..

Bu tədris ilində tam (11 illik) orta təhsil səviyyəsi üzrə 5 mart tarixində keçirilmiş buraxılış imtahanında iştirakı nəzərdə tutulan 50498 nəfərdən 476 nəfər imtahana gəlməyib. İmtahan qaydalarını pozduğu üçün 11 nəfərin nəticəsi ləğv olunub.

İmtahan iştirakçıları arasında ən yüksək nəticəni 296.7 bal toplayan Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin şagirdi göstərib. Məlumat üçün qeyd edək ki, həmin şagird 2 il əvvəl də 9-cu sinif buraxılış imtahanında 282.6 bal toplamaqla yüksək nəticə göstərib.

Tam (11 illik) orta təhsil səviyyəsi üzrə 12 martda keçirilmiş buraxılış imtahanında isə iştirakı nəzərdə tutulan 50823 nəfərdən 485 nəfər imtahana gəlməyib. İmtahan qaydalarını pozduğu üçün 19 nəfərin nəticəsi ləğv olunub. İmtahan iştirakçıları arasında 4 nəfər 297.5 bal toplamaqla ən yüksək nəticəni göstərib. Yüksək bal toplayanlardan 2 nəfər Bakı şəhər Nəsimi



rayon texniki-humanitar liseyinin, 1 nəfər Səbail rayon 160 №-li klassik gimnaziyasının, 1 nəfər Sabunçu rayon 169 №-li orta məktəbinin məzunudur.

Qeyd edək ki, buraxılış imtahanında şagirdlərə tədris dili fənnindən 10 yazılı cavab tələb edən açıq və 20 qapalı, riyaziyyat fənnindən 7 yazılı cavab tələb edən açıq, 5 kodlaşdırılan açıq, 13 qapalı, xarici dil fənnindən 7 yazılı cavab tələb edən açıq və 23 qapalı tipli tapşırıq olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunub. Bu mərhələdə fənlərin hər biri üzrə toplanıla biləcək maksimal bal 100 olmaqla, ümumilikdə 300 bal olub.

Göründüyü kimi, hər iki imtahanın nəticəsi olaraq cəmi 5 nəfər yüksək bal toplayıb. Ötən tədris ilində isə tam ( 11 illik) orta təhsil səviyyəsi üzrə keçirilmiş imtahanlarda iştirak edən 90 min məzundan cəmi 2 nəfər yüksək bal toplamışdı. İki tədris ilinə cəmi 7 məzunun yüksək bal toplaması təhsilin səviyyəsinin hansı dərəcədə olduğunu göstərir. Builki yüksək nəticə göstərən 5 məzunun yalnız 1-nin orta məktəb məzunu olması isə daha utandırıcıdır. Belə çıxır ki, buraxılış imtahanlarına əsas şagird bazasını verən orta məktəblər ortalığa yalnız 1 nəfər yüksək səviyyə göstərən şagird çıxara biliblər. Uğur isə lisey və gimnaziyalarındır.

## Bəs səbəb nədir?..

Məsələn, 2022-ci ildə buraxılış imtahanlarında 92 673 nəfər iştirak edib. Onlardan təxminən 23 650 nəfər 0-50 bal arası nəticə göstərib. Rəqəmə diqqət edəndə, adamı heyrət bürüyür. Deməli, ölkəmizdə 23 650 məktəbli 11 il ərzində məktəbə nə üçün gedib-gəlib, 50 bal göstərici üçünmü? Builki nəticələr tam açıqlanmayıb. Açıqlanarsa, düşünürəm ki, heç də bundan fərqli bir göstərici olmayacaq.

Bu, tam aşağı səviyyədir. Bəs digər məzunlar necə, yaxşı bal toplaya bilirlərmi? Toplaya bilmirlərsə, bunun səbəb nədir? Təhsil eksperti Kamran Əsədov bildirib ki, bu il imtahanın nəticələri aşağıdır: "5 martda keçirilən imtahanda 50 min 800-ə yaxın insan iştirak edib və onların arasında cəmi 1 nəfər 297 bal toplayıb. Yəni 50 mindən çox şagirddən heç birinin 300 bal toplaya bilməməsi artıq bu imtahanların nə qədər çətin olduğundan xəbər verir".

Bəli, imtahanlar çətinləşdirilib, bunu bütün məzunlar bildirirlər. Bu, əlbəttə orta məktəblərdə əla qiymətlərlə oxuyan məzunları narahat edir. Çünki onlar zəhmətlərinin nəticəsini əldə edə bilməyəndə təəssüflənirlər, 10-15 bal onları seçdikləri ixtisasdan uzaqlaşdırır.

Yaxşı, ən aşağı və ən yuxarı səviyyələrdən danışdıq. Bəs orta səviyyə necədir? Orta səviyyə daha qorxunc vəziyyətdədir. Ekspert K. Əsədov imtahan nəticələrinin aşağı olmasının məktəblərdə tədrisin keyfiyyətinin aşağı olduğundan da xəbər verdiyini söyləyir. Onun sözlərinə görə, imtahan nəticələri göstərir ki, məktəblər öz funksiyasını yerinə yetirə bilmir: "Tədrisin keyfiyyətinin aşağı olması imtahan nəticələrinə təsir edir".

Qeyd edək ki, 2021 və 2022- ci illərdə buraxılış imtahan nəticələri bir-birindən bir o qədər də fərqlənməyib. Hər iki ildə imtahan nəticələrinə əsasən, 200 bal toplayan şagirdlərin sayı demək olar ki, eynidir. Statistika tam açıqlananda görəcəyik ki, 2023-ci il də özündən əvvəlki iki ildən fərqli deyil. Bu isə, bəli, ekspertin söylədiyi kimi, təhsilin keyfiyyətinin aşağı olması ilə bağlıdır.

İmtahan nəticələrinin aşağı olmasının bir səbəbi isə iddialara görə, sualların səhv olmasıdır. Bunu, abituriyentlər, valideynlər və müəllimlər iddia edirlər. Ekspert Elçin Əfəndi bu barədə mətbuata açıqlamasında bildirib: "İmtahanda bir neçə sual səhvdir. Abituriyentin buna kifayət qədər vaxtı gedir. Hələ bu suallar riyaziyyat, kimya, fizika kimi fənlərdəndirsə, abituriyentin ona kifayət qədər vaxtı gedir. Həll yolunu tapa bilməyəndə ola bilər ki, şagird ümidsizliyə qapılır. Yaxud da digər sualları çatdıra bilmir deyə artıq o təntiyir və o biri sualları doğru yazmaya bilər. DİM, ümumiyyətlə, sual prosesinə, suallara və yoxlama prosesinə xüsusi diqqət etməlidir. Suallar abituriyentlərə verilməmişdən qabaq dəfələrlə yoxlanılmalıdır. Eynilə yoxlama prosesi də çox diqqətli şəkildə aparılmalıdır. Çünki bir səhv sual varsa, abituriyentin ona kifayət qədər vaxtı gedir. İstədiyi nəticəni də əldə edə bilmir. Qaldı ki, narazılıq edənlərə, abituriyentlər və valideynlər apelyasiya komissiyasına müraciət edə bilirlər. Onlar haqlıdırsa, haqları bərpa olunur".

## Repetitorlardan 150-200 bal töhfəsi

Təsilin keyfiyyətinin aşağı səviyyədə olmasının başlıca səbəbi son 10-15 ildə repetitorluğun cəmiyyətimizdə geniş yer almasıdır. Məktəblərimizdə elə ki, repetitorluğun təməli qoyuldu, başqa bir problem də ortaya çıxdı. Deməli, biz valideynlər axtarıb-arayıb elə müəllimlər tapmağa çalışdıq ki, uşaqlarımıza dərs verən fənn müəllimlərindən daha savadlı olsun. Əks halda onsuz da sinifdə yaxşı-pis dərs keçirilirdi də. Nəyimizə lazım idi ki, üstəlik pul da verib müəllim tutaq. Bunun belə olduğunu görən müəllimlər nə etdilər? Uşaqları sinifdə sıxışdırmağa, qiymətini kəsməyə, dərsə qaldırmamağa başladılar. Səbəb? Səbəb bu oldu ki, sən nə üçün mənim yanıma deyil, başqa müəllimin yanına hazırlığa gedirsən. Bütün günü məktəbdə əziyyətinizi mən çəkim, siz də ayrı müəllimin yanına gedəsiniz?..

Beləliklə, fənn müəllimləri biliklərinin səviyyəsindən asılı olmayaraq məktəbdə dərs dedikləri bütün siniflərin şagirdlərini öz hazırlıqlarına cəlb edə bildi. Şagird də valideyni ilə bu qənaətə gəldi ki, nə etməli, elə filankəs müəllimin yanına getməli. Qeyd edim ki, bu cür təkliflər yaxşı müəllimlərdən bilik səviyyəsinə görə aşağı olan müəllimlər arasında oldu. Çünki yaxşı müəllimin özünə uşaq yığmasına ehtiyac yoxdur, onu hər kəs tanıyır və uşaqlarının da sayı-hesabı yoxdur. Lakin dediyimiz kimi, yaxşı olmayan müəllimlər isə bu yola əl atdılar. Beləliklə də uşaqlar necə deyərlər, kor olmağa başladılar. Belə müəllimlər hətta dərs zamanı yeni dərsi də izah etməyib hazırlıq saatlarına saxladılar. Bunu etiraf edən onlarla şagird var. Hazırlıqda da müəllim o qədər uşağın suallarına cavab versin, tapşırıqları yoxlasın, yoxsa məktəbdə öhdəsindən gələ bilmədiyi yeni dərsi izah etsin... Belə-belə təhsil gəlib bugünkü vəziyyətə düşdü. Valideyn əziyyət çəkib pul ödədi, repetitor alıb qoydu cibinə, imtahan vaxtı da gördük ki, uşaq aşağı bal toplayıb. Aşağı bal toplayanda isə nə baş verdi? DİM hər il keçid ballarını aşağı salmağa başladı. Abituriyentlər 150-200 bal toplamaqla ödənişli əsaslarla təhsilə dəvət edildilər. Beləliklə, nə baş verdi?...

## Nə məzunlar kənarda, nə də universitetlər boş qaldı...

Bəli, 150-200 bal toplayan yüzlərlə abituriyent əsla təhsildən kənarda qalmadı. Onlar üçün şərait yaradıldı ki, təhsil alsınlar. Yəni ödənişli əsaslarla. Burada uduzan kim olur? Valideyn və cəmiyyət. Valideyn o mənada uduzur ki, 3-4 il 5 fənn üzrə övladının yolunda səpələdiyi pulları yenidən 4 il ərzində universitetlərə ödəməli olur. Hər kəsin maddi vəziyyətinin buna imkan vermədiyini düşünsək, yüzlərlə valideynin övladını oxutmaq üçün zillətlərlə üzləşdiyini söyləmək olar. Onlarla belə ailə tanıyırıq ki, banklardan kredit götürüb övladlarının təhsil ödənişinə sərf edir. Sonra da çarəsiz qalıb ailə büdcəsindən kəsib onu ödəyir.

Ailələr var ki, düz dörd il valideynlər "lotereya" oynamaqla məşğul olur. Ona növbəsi çatanda götürür, təhsil haqqına ödəyir, sonra yenidən başlayır, qalan hissəni ödəyir. Ailələr tanıyıram ki, böyük uşağın təqaüdünü o biri uşağın təhsil haqqı üçün sərf edirlər. Ailələr var ki, övladının 4 il təhsil dövründə olmazın çətinlikləri ilə üz-üzə qalır...

Bəs cəmiyyətimiz? Cəmiyyətimizə 150-200 bal səviyyəsində təhsil alan "təhsilli" lazımdırmı? Bu qəbildən olan gənclər hansı biliyə malikdirlər ki, sabah cəmiyyətimizə, ölkəmizə nə isə vermiş olalar. Müasir dövrümüzdə artıq işləmək üçün imtahanlardan keçmək gərəkdir. Gəlin görək, 150-200 ballıq tələbələr bu imtahanlara hazırlaşa, imtahanlardan keçib özlərinə iş tapa bilirlərmi? Belə isə nəyə lazımdır aşağı balla universitet bitirib cəmiyyətə kor kimi daxil olmaq?

Ölkəmizə 150-200 ballıq tələbələrin xeyri nə olacaq, bu barədə düşünə bilsək, təhsildə yeniliklərə həmin andan etibarən imza atmış olacağıq.

## Təhsilli olmaq xəstəliyi

Gəlin etiraf edək ki, son illərdə cəmiyyətimizdə yeni bir xəstəlik yaranıb: təhsilli olmaq xəstəliyi. Hər kəs oxumaq, əlinə diplom almaq istəyir. Bu diplomların gələcəyi barədə isə əsla düşünən yoxdur.

Qonşunun uşağı oxudu, mənimki nə üçün oxumasın. Bibiqızı, dayıoğlu universitetə girdi, mən niyə oxumayım? Elə bir zəmanəyə gəlib çıxmışıq ki, oğlanlar savadlı qızla, qızlar universitet bitirmiş oğlanla evlənmək istəyirlər.

Maraqlıdır, 150-200 bal toplayıb tələbə olan gənc əgər sabah işləyə bilməyəcəksə, (yəni işləyə də bilməz, çünki indi artıq hər bir idarə, müəssisə, təşkilat bilikli insanlara üstünlük verir) bəs belə olan halda nə üçün gözəl sənətlərdən birini seçmir özü üçün? Ölkədə hamı təhsilli olacaqsa, dərzi, usta, sürücü, dülgər, zərgər və saya biləcəyimiz onlarla sənətin sahibi kim olacaq?

Biz övladlarımızı düzgün yetişdirmirik, eyni zamanda, düzgün istiqamətləndirmirik. Təhsilli olmaq xərçəng kimi bütün vicudumuza qol-qanad atıb. Bu xəstəliklə mübarizədə gec qalmaqdayıq. Gəlin, elə bu gündən mübarizəyə başlayaq. Başlayaq ki, sabah gec olmasın. 150-200 balla cəmiyyətdə özünə yer tapa bilməyən, utanan uşaqlarımıza doğru yol göstərək. Onları müxtəlif sənətləri öyrənməyə yönəldək. Bununla həm onları xilas etmiş olarıq, həm də müasir təhsil sistemimizi...

***Mətanət Məmmədova***

# "Sülhməramlılar çıxanadək sülh razılaşması imzalanmasa..."



*Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqlarının nəticələri barədə "Moskva-Baku" portalına müsahibəsində şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*

**- Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqlarının nəticələrini Ermənistan mediası belə təqdim edir ki, Çarlz Mişelin yekun bəyanatı erməni məntiqindən daha çox azərbaycan məntiqi ilə ifadə olunub. Belədirmi? Və bu görüşün arxasında hansı real nəticələr var?**

- Yəqin ki, bəli. İrəvan yenə də öz formalarını irəli sürə bilmədi, nəticə vermədi. Bunlar həqiqətən də daha çox Azərbaycanın mövqeyi məntiqində formalaşıb. Lakin Avropa İttifaqı isə yenə də açıq şəkildə vəziyyəti dəyişmədi və açıq şəkildə Bakının qəti mövqeyinin əleyhinə getdi.

Danışıqlar prosesində əsas maneə Qarabağın statusu məsələsi olaraq qalır. Amma biz onu nə Çarlz Mişelin bəyanatında, nə də Ermənistan hökumətinin mətbuat açıqlamasında görmürük.

Eyni zamanda, biz yaxşı bilirik ki, İrəvan mütəmadi olaraq statusla bağlı bənd salmağa çalışır və bu "statusun" beynəlxalq müşahidəçilər, beynəlxalq qərbyönlü təşkilatlar, Avropa İttifaqı, ATƏT tərəfindən qeydə alınmasını nəzərdə tutur. Azərbaycan kifayət qədər hüquqi və məntiqlə deyir ki, milliyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarına bərabər hüquqlar verilir. Bütün millətlərin nümayəndələri öz adət-ənənələrində yaşamaq, dövlət dili ilə yanaşı, öz etnik mənsubiyyətinin dilində danışmaq imkanına malikdirlər. Azərbaycanda müxtəlif millətlərin nümayəndələri mehriban çoxmillətli dövlət kimi yaşayırlar. İrəvan isə Qarabağ erməniləri üçün hansısa xüsusi üstünlüklərə nail olmağa çalışır.

Brüsseldə aparılan danışıqlar, yəqin ki, Ermənistan-Azərbaycan nizamlanmasına o qədər də əlavə dəyər vermədi. Bunu Azərbaycan XİN-in ötən danışıqlara verdiyi qiymətin ümumi ifadəsi göstərir. Doqquz aylıq danışıqlar fasiləsindən və prosesə mənfi təsir göstərmək cəhdlərindən sonra keçirilən görüşün " tərəflər arasında ən yüksək səviyyədə dialoqun təşviqi baxımından əhəmiyyətli olduğu" və görüşün "faydalı və nəticəyönümlü" olduğu səsləndi.

Yəni, bu danışıqlar "gözəl nəzakətdən" başqa bir şey deyil. Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında Vaşinqton danışıqlarının və ya liderlərin Brüssel təmaslarının yalnız gələcəkdə konkret razılaşdırılmış sülh müqaviləsi mətnini görəcəyimiz halda nəticə verdiyini söyləmək mümkün olacaq. Qalan hər şey sadəcə olaraq danışıqlara informasiya və siyasi dəstəyin yaradılmasıdır ki, bu vasitəçiyə, yəni bu halda ABŞ və ya Aİ-yə uyğundur. Vasitəçi danışıqlardan sonra verdiyi açıqlamada deməyəcək ki, görüş tam uğursuzluqla başa çatıb və biz heç nə əldə edə bilmədik. Hiss olunan nəticənin olduğunu deyə bilmərik. Bu halda söhbət ondan gedir ki, danışıqlar aparmaq yaxşıdır. Amma danışıqların bərpası indi və ya yaxın gələcəkdə nəticə əldə etmək demək deyil. Müxtəlif tərəflərdən belə səslənsə ki, biz heç nə ilə razılaşa bilməmişik və bu, sadə vaxt itkisi idi, təəccüblənmərəm.

## *Ekspert: Qərbin dərdi məsələni həll etmək deyil, Rusiyanı danışıqlar prosesindən kənarlaşdırmaqdır*



Azərbaycan üçün müsbət cəhət ondan ibarətdir ki, Mişelin növbəti bəyanatı Brüssel danışıqlarının yekunları üzrə sonuncu dəfə olduğu kimi, tərəflərin Alma-Ata Bəyannaməsinə sadiqliyini təsdiqləyir. Bu, Bakı üçün yaxşıdır, çünki o, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul edir və Ermənistan tərəfindən onun belə statusda tanınmasını nəzərdə tutur. Yəni Bakı bu məqama arxalana bilər.

Məntiqli olardı ki, Çarlz Mişel ənənəvi olaraq Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatına istinad edəydi, orada İrəvanın üzərinə götürdüyü öhdəliklər var, lakin bu, iki ildən çoxdur yerinə yetirilməyib. Amma biz nə görürük: Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqlarının yekunlarına dair Şarl Mişelin bəyanatında Rusiyanın vasitəçiliyi ilə imzalanmış bu sənədə artıq heç bir istinad yoxdur.

Yəni, əvvəllər Aİ münaqişənin həlli üçün bu fundamental sənədə istinad edirdisə, indi o, yoxdur. Bu, Rusiyanı prosesdən kənarlaşdırmaq üçün nümayişkaranə siyasətdir. Yəni, guya Rusiyanın bu proseslə heç bir əlaqəsi yoxdur. Qərbin hər şeyi elə təqdim etmək cəhdi danışıqlar prosesinə sıfırdan başlayıb və bunda uğur qazanmağa hesablanıb. Axı biz Dövlət Departamentindən də eşitdik ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Vaşinqtonda dördgünlük danışıqlardan sonra və Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqlarından sonra, demək olar ki, inanılmaz irəliləyişlər var ki, razılaşma az qala yaxındadır. Amma bu, daha çox öz üstünlüyünü və nizamlanma prosesində yeganə rolunu göstərmək cəhdidir.

Rusiyanın, Vladimir Putinin də iştirak etdiyi sənədləri Qərb rədd etməyə çalışır. Rusiyanın nə etdiyi, hansı səylər göstərdiyi Qərb üçün qapalı mövzudur. Əbəs yerə deyil ki, Vaşinqtonda Moskvanın prosesdə iştirakı ilə bağlı aktual suallara cavab verən ifadələr artıq adi hala çevrilib– deyirlər, bu, bizi narahat etmir, maraqlandırmır.

**- Daha bir məqam- Mişel bildirib ki, delimitasiya prosesi, nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması və məhbusların mübadiləsi müzakirə olunub. Lakin Ermənistan tərəfi bir-iki gündən sonra deyir ki,- yox, Zəngəzur dəhlizi olmayacaq, saxlanılan hərbçilərin mübadiləsi ilə bağlı nəsə demək tezdir. Yəni, Brüssel danışıqlarında qeydə alınan hər şeyi inkar etməyə başlayır.**

- Təəssüf ki, İrəvanın bütün diplomatiyası ona gəlir ki, İrəvan əvvəlcə Moskvanın vasitəçiliyi ilə əldə edilən üçtərəfli bəyanatlarda olduğu kimi sənədi imzalayır və sonra bu taktikanı həyata keçirir: gəlin fikirləşək ki, necə edəcəyik, ya da edəcəyikmi. İmzaladığımız şeyi yerinə yetirməyək. Bu, Qərbin yaratdığı belə bir sxemdir: nəyə imza atsan onu yerinə yetirməlisən, amma imzaladıqdan sonra onu necə yerinə yetirəcəyinlə bağlı sonsuz danışıqlar aparmaq imkanın var. Bu, Minsk razılaşmaları çərçivəsində Avropa İttifaqının Ukraynada həyata keçirdiyi eyni Qərb sxemidir. İmzaladıq, amma indi bunu necə edə biləcəyimizi və ümumiyyətlə bunu edib-etməyəcəyimizi və bunun üçün nə tələb edəcəyimizi və s müzakirə edərik. Və sonra biz bu istiqamətdə digər sənədləri imzalayacağıq və biz də sonsuz müzakirələr aparacağıq və guya danışıqlar aparırıq və sülh istəyirik. Tipik Avropa diplomatiyası.

**- Rusiya bu vəziyyətdə necə manevr edəcək. İndi, nəhayət, mayın 19-da Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Moskvada görüşü gözlənilir.**

- Rusiyanın mövqeyi ondan ibarətdir ki, burada və indi mümkün olanı həyata keçirsin. Burada və indi mümkün olanlar 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda və Rusiya tərəfinin vasitəçiliyi ilə imzalanmış sonrakı bəyanatlarda qeyd olunub.

**- Axı, iki ildən artıqdır ki, bu taktika işə yaramır. Amma bu, alınmadı, çünki Ermənistan və Qərbin simasında maraqlı tərəflər var ki, işləməsin.**

- Düşünürəm ki, vəziyyət danışıqlar mərhələsində olduğu halda, bizim manevr üçün hər zaman yer var.

**- Ötən gün Azərbaycanla Ermənistan sərhədində eskalasiya olub. Və Azərbaycan mediası hücumların videoyazısına istinadən, zərbələrin Azərbaycan mövqelərinə Fransanın pilotsuz təyyarələri tərəfindən vurulduğunu deməyə başlayıb.**

- Çox güman ki. Hazırda Fransa Ermənistanı aktiv şəkildə silahla təmin edir ki, bu da danışıqlar prosesində Azərbaycana kənardan təzyiq faktorudur. Mövqe belədir: şərtlərimizlə razılaşmasanız, o zaman hərbi təzyiqləri artıracağıq.

**- İrəvanın anti-Rusiya bəyanatları nəinki azalır, əksinə, demək olar ki, dayanmadan artır. Ermənistan Təhlükəsizlik Şurasının katibi bəyan edib ki, erməni əhalisinin yaşadığı Qarabağda Soros, Qərb sülhməramlıları yoxdur, amma orada anti-Rusiya əhval-ruhiyyəsi formalaşır. Və bunun günahkarı Rusiyanın özüdür. Elə həmin günlərdə İrəvan rəsmiləri Ermənistanın KTMT-dən çıxmasını müzakirə etdiyini bir daha bəyan edir. Bu şişirdilmiş ifadələrə bir yenisi də əlavə olunur ki, Ermənistan Rusiyadan silah alıb, amma Rusiya bu silahları ona vermir. Və bu barədə son günlər İrəvanda bir neçə məmur danışıb.**

- Beləliklə, İrəvan Rusiyaya daim təzyiq göstərir və bu cür bəyanatlarla Rusiya Federasiyasını Cənubi Qafqazda kommunikasiya əlaqələrindən sıxışdırmağa haqq qazandırır, Ermənistan daxilində əhali arasında, beynəlxalq aləmdə Rusiyaya pis münasibət formalaşdırmağa çalışır. Bunun üçün müvafiq məlumat fonu yaradır. Ona görə də İrəvan tərəfindən Moskvaya qarşı bu qədər qeyri-dost tənqidi ifadələr daima imkan daxilində, praktiki olaraq dayanmadan atılır ki, onlara diqqət yetirilsin. Bu cür siqnallar şüuraltına yerləşdirilir. Bu taktika Rusiya ilə daha az əlaqə üçün əsas kimi istifadə olunur.

Biz obyektiv reallığın şahidi oluruq: Ermənistan tədricən KTMT-dən çıxır. İrəvanın kursu Aİİ və KTMT dən qoparaq NATO və Aİ istiqamətində fəal ardıcıl hərəkətdir. Eyni şeyi Ukrayna ilə də müşahidə etdik: vaxtilə bəzi qüvvələr Rusiya ilə münasibətləri tez bir zamanda pozub təcili olaraq sərt ssenari ilə Qərbə getmək lazım olduğunu deyirdi, digərləri isə bu mövqedən çıxış edirdilər ki, onunla münasibətləri saxlamaq lazımdır. Ermənistanda məhz bu ssenari həyata keçirilir: Qərbə doğru irəliləyən və Rusiya ilə münasibətləri tədricən kəsən qüvvələr var. Eyni zamanda, İrəvan Qərbə keçidin xərclərini ödəmək üçün Rusiya təmaslarından maksimum faydalanmaqda davam edir.

Eyni zamanda, məncə, zaman Azərbaycanın xeyrinə oynayır. Azərbaycan Qarabağın erməni icması ilə müstəqil danışıqlara başlayıb. 2,5 ildən sonra Rusiya sülhməramlıları Qarabağdakı missiyasını başa vuracaqlar. Və bu 2,5 il ərzində ya Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlanacaq, ya da bu müddətdən sonra Rusiya sülhməramlıları gedəcək, oraya Azərbaycan qüvvələri gələcək.

*Ardı Səh. 6*

# "Sülhməramlılar çıxanadək sülh razılaşması imzalanmasa..."

Əvvəli-Səh-5

**- Biz Türkiyədəki prezident seçkiləri ilə bağlı aktiv Qərb təzyiqini görürük. Burada Ərdoğanın simasında Türkiyənin milli maraqları ilə müxalifətçi**

Kamal Kılıçdaroğlunun simasında Qərbin himayədarı arasında açıq-aşkar mübarizə gedir.

- Qərbin belə təsir istiqamətləri çoxdur. Türkiyə də onlardan biridir. Qarşıdakı iki həftədə Türkiyəni çətin dövr gözləyir, bunlar tarixi seçkilərdir ki, digər məsələlərlə yanaşı, güclü dövlətlərdən birinin bu nöqtəyə qədər hansı qüvvələrin tərəfində olacağını və nüfuzlu qalıb-qalmayacağını müəyyən edir. Ya öz milli maraqlarına və beynəlxalq proseslərə təsir edən dövlət kimi qalacaq, ya da tamamilə Qərbin təsirinə keçərək onun əlində alətə çevriləcək. Ərdoğan və rəqibinin hansı səfərbərlik resursuna sahib olduğu önəmlidir. Türkiyənin hazırkı prezidentinin ilk turda qalib gəlməsi üçün cəmi 24 min səs çatmadı, əslində bu, acınacaqlı rəqəmdir. Ərdoğan ölkəsinin milli maraqlarını müdafiə edən, müstəqil lider, beynəlxalq vəziyyətə təsir edən çox güclü fiqurdur. Rusiyanın, üstəlik Azərbaycanın da yaxşı münasibətləri olan lider. Onun qələbəsi isə təbii ki, həm Rusiyaya, həm də Azərbaycanın xeyrinədir.

Əgər Qərbin əlaltısı-Kılıçdaroğlu olmasaydı, Türkiyədəki seçki prosesinə güclü Qərb təzyiqi olmasaydı, Ərdoğan ilk turda sözsüz ki, böyük fərqlə qalib gələcəkdi. Ona qarşı təşkil edilən təxribatları, gülməli ssenariləri, Kılıçdaroğlunun Rusiyanın guya seçkilərə müdaxiləsi ilə bağlı açıqlamalarını görürük. Tramp prezident seçkilərində qalib gələndə ABŞ-da demokratların etdiklərinin tamamilə vəhşi surətidir. Daha sonra bu mövzunu sürükləməyi bacardılar. ABŞ prokuroru heç bir müdaxilənin olmadığını və hamısının FTB tərəfindən icad edildiyini elan etdi. Ancaq sonra məlum oldu ki, bu mövzu açılmayıb. İndi də fikirləşirlər ki, keçən dəfə yaxşı işləyiblərsə, Türkiyədə həmin texnologiyanı, metodologiyanı niyə dəyişsinlər.

Türkiyə müxalifəti qərbpərəstliyini gizlətmir, hətta Azərbaycana tərəfdaş kimi yanaşmırlar. Kılıçdaroğlu NATO ölkələrinin ortaq kursu üzərində dayanacağını birbaşa deyir. Bəs onlar kimdir? Bu, Fransadır, bunlar indi Ermənistanda olan avropalı sülhməramlılardır. Müxalifətçi qalib gəlsə, Türkiyə Aİ-yə üzvlüklə bağlı danışıqları bərpa edəcək, daha sonra Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə başlayacaq, Cənubi Qafqazda isə Türkiyə Ermənistanı dəstəkləyəcək və, Azərbaycandan yan keçməklə, onunla münasibətləri yaxşılaşdıracaq. Kılıçdaroğlu Türkiyədəki seçkilərdə qalib gəlsə, bu, bölgə üçün yeni təhlükə olacaq. O rəhbər seçilsə, Qərbin vəzifəsi Türkiyənin əli ilə Rusiya ətrafında qaynar nöqtələr, qeyri-sabitlik yaratmaq olacaq. Rusiya və Türkiyənin qarşılıqlı əlaqədə olduğu hər yerdə, o cümlədən Suriyada yenidən sabitlik pozulacaq.

***Tərcümə - Elçin Bayramlı***

# "Zəfər qələbəmiz iqtisadi inkişafımızla üst-üstə düşür"



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

"Şuşanın 270 illik tarixi əlamətdar, eləcə də təlatümlü, həyəcanlı, qorxulu aylarla, illərlə zəngindir. Tarixlər boyu gözəlliyi və strateji mövqeyi insanları özünə cəlb edən və düşmənlərin göz dağına çevrilən Şuşamızın başı çox müsibətlər çəkmişdir. Son illər erməni faşistlərinin oylağına çevrilən, dağıdılan, məhv edilən Şuşamız bu gün Azərbaycan Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin mətanəti və siyasi məharəti, ordumuzun, igid



oğul və qızlarımızın qəhrəmanlığı, xalqımızın mətin iradəsi və birliyi sayəsində azaddır və özünün ən xoşbəxt günlərini yaşayır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, dövlətimizin rəhbərinin Ulu Öndərimiz Heydər Əliyevin 100 illik yubileyində Şuşadan xalqa müraciəti və "Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır" ifadələrini qürurla səsləndirməsi hər bir vətəndaşının qəlbini riqqətə gətiribdir.

"Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik", söyləyən cənab İlham Əliyev öz xalqına, Ulu Öndərə yeni bir hesabat verdi. Bu, tək rəhbərin deyil, ürəyi Şuşa və Prezidentlə döyünən xalqın hesabatı idi. Məhz buna görə də dövlətimizin başçısı Şuşanı seçmişdi. Çünki Ümummilli Liderimizin, şəhidlərimizin, işğal dövründə dünyasını dəyişən, faciələrlə qarşılaşan insanların ruhu Şuşamızı dolaşırdı, cənab İlham Əliyevin qürurlu səsini eşidib sevinirdi.

Azərbaycanın Zəfər qələbələri inkişafımızın uğurları ilə üst-üstə düşdüyü üçün həyatımızı daha da dəyərləndirir. Müraciətdə səsləndirildiyi kimi "son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur". Son 20 ildə Azərbaycanın iqtisadi-sosial inkişafı istiqamətində həyata keçirilən mühüm dövlət proqramları, düşünülmüş layihələr sürətli inkişafa və tərəqqiyə imkan yaratmış, iqtisadiyyatımız 3 dəfədən çox artmış, valyuta ehtiyatlarımız 65 milyard dollara çatdırılmış, insanların sosial-rifahı halı qat-qat yüksəlmişdir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi bütün bunlar Ulu Öndərimiz Heydər Əliyevin ölməz ideyalarının, onun amallarının, arzularının sədaqətlə, ardıcıl həyata keçirilməsinin nəticəsidir. Ümummilli Liderimizin vəsiyyətini yerinə yetirmək, arzularını çiçəkləndirmək xalqımızın istəyi və borcudur. Məhz bu ideyalar bizi daha xoşbəxt günlərə, yadda qalan uğurlara, inkişaf və tərəqqiyə çatdıracaqdır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Paşinyanın oğul dərdi...

## *Versiyalar müxtəlifdir*



***Erməni mediası yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyan Avropa Şurasının 4-cü sammitində bir neçə görüş planlaşdırıbmış. Lakin...***

Lakin hər şey onun istədiyi kimi olmayıb, daha dəqiq desək, oralıq olmayıb. Sosial şəbəkələrin erməni seqmenti, eləcə də Reykyavikdə keçirilən sammitdə Paşinyanı müşahidə edənlər onun qəribə hərəkətləri barədə danışmağa başlayıblar. Hətta kuryoz hadisənin təfərrüatları barədə də qeydlərini ediblər. Beləliklə...

Nikol Paşinyan çıxışına az müddət qalmış sammitin keçirildiyi zalı başıolvlu tərk edib. "O praktiki olaraq zaldan qaçaraq çıxıb", - deyə yazan hadisə şahidləri bildiriblər ki, Paşinyan orada telefonla kiminləsə əsəbi və yüksək səslə danışmağa başlayıb. Məhz həmin anlarda ona deyiblər ki, oğlu hansısa şəxslər tərəfindən oğurlanıb.

### Hansı nəticələri çıxarmaq olar?

İlk olaraq nəticə hasil etmək mümkündür ki, onun oğlunun oğurlanması faktı, məhz Paşinyanın ölkədə olmayacağını bilənlərin köməyi ilə baş verib. Yeni planın qurulmasında hakimiyyət dairələrinfə olanlardan kiminsə əli var. Çünki Paşinyanın sammitə getməsi onun iclasda iştirak etməsindən sonra bəlli olacaqdı.

Hadisənin törədilməsi digər məsələləri də üzə çıxarır. Misal üçün, bəlli olur ki, İrəvandakı bəzi güclər bu vasitə ilə Nikol Paşinyana xəbərdarlıq siqnalı göndərməyə cəhd ediblər. Çünki son vaxtlar erməni baş nazir Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olduğunu bir neçə dəfə bəyan edib. Eləcə də İslandiyada da həmin bəyanat səslənəcəkdi.

### Onun Azərbaycanın 86,6 min kv.km-lik ərazisini tanımaqdan başqa heç bir çarəsi yoxdur!

Daha bir mümkün ehtimal budur ki, Paşinyanın oğlunu oğurlamaq istəyənlər müharibədən sonra övladları cəbhədə ölən hərbçilərin valideynləridirlər. Onlar baş nazirə necə deyərlər, "övlad dağı" çəkdirmək üçün bu addımı atıblar. Fakt isə budur ki, Paşinyanın heç bir çıxış yolu qalmayıb və hətta oğlu oğurlanıb-qaytarılmasaydı belə, onun Azərbaycanın 86,6 min kv.km-lik ərazisini tanımaqdan başqa heç bir çarəsi qalmayacaqdı və yoxdur da!

Yeri gəlmişkən, Paşinyanın övladının oğurlanmasında iştirak edən Qayane adlı erməni qadını məhkəmələrdə və istintaq orqanlarında süründürülməkdədir və bu hal da erməni cəmiyyətində qıcıq yaradır. Övladı cəbhədə ölənin anasının polis zorakılığına məruz qalması Ermənistanın yenidən çalxalanmasına səbəb ola bilər. Hər halda, az da olsa Paşinyan çıxılmaz vəziyyətdədir.

***Afət Tahirqızı***

***Hər hansı bir peşə sahibi olmamışdan əvvəl hamımız hansı peşənin bizim üçün ən uyğun olacağına dair dərin düşüncələrə qapılırıq. Bu proses bəzilərimiz üçün olduqca asan olsa da, bəzilərimiz üçün çətin ola bilər. Prosesi asanlaşdıran ən mühüm faktlardan biri də maraq və zövqlərimizi müəyyən etməkdir. Peşə seçərkən diqqətiniz təkcə pul qazanmağa deyil, bu işi həvəslə və sevərək edə bilib-bilmədiyinizə yönəlməlidir. Bu kontekstdə daim özünüzə suallar verməlisiniz.***



# Ali təhsilli olmaq üçün niyə dəridən-qabıqdan çıxılır?



**Bəs, hər kəs universitet oxumalıdır? Ali təhsil almadan da peşə məktəblərində fərqli peşələrə yiyələnərək uğur qazanmaq olmaz?**

SİA mövzu ilə bağlı araşdırma aparıb. Əgər bir ölkə iqtisadi cəhətdən inkişaf edibsə, adambaşına düşən gəlir səviyyəsi o ölkədə yaşayan insanların yaşaması və özünü inkişaf etdirməsi üçün kifayətdirsə, böyük ehtimalla o ölkənin xalqının gələcəyi ilə bağlı heç bir narahatlığı olmayacaq və istədikləri peşələrə üz tuta biləcəklər. Bir ölkənin şərtləri insanları iqtisadi cəhətdən məcbur edirsə, eyni şərtlər insanları yaxşı maaş verən müəyyən peşələri seçməyə məcbur edir. Maddi çətinliklərin tez-tez yaşandığı bir ölkədə müəyyən peşələri, məsələn, sənət növlərindən birini seçmək yüksək risk kimi qəbul edilir.

Ölkəmizdə ümumi tendensiya uşaqların ailələrdən asılı böyüdülməsidir. Valideyn olaraq hələ kiçik yaşlarından uşaqlarımızn həyatını öz istəklərimizə uyğun yönləndiririk. Bu vəziyyətin davamı olaraq, övladlarımız peşə seçmək yaşına çatdıqda, ümumiyyətlə, öz həyatlarına təsir edəcək seçimləri edə bilmirlər, valideynlərinin, müəllimlərinin, bəzən də hətta qonşuların təsiri altında olurlar.

Gəncin seçdiyi peşə, ilk növbədə, onun qabiliyyətinə, marağına uyğun olmalıdır. Gəncin öz qabiliyyətinə, maraqlarına uyğun peşə seçməsi üçün onun gənc yaşlarından başlayaraq sərbəst seçim etməsinə, məsələn, geyimini, əşyalarını seçməsinə şərait yaratmaq lazımdır.

**Təhsil eksperti Nadir İsrafilov:** "Bu gün əsas göstərici, neçə nəfərin diplomlu olması yox, neçə nəfərin həyatda fəal mövqe tutmasıdır. Səriştəsiz diplomçudan, səriştəli peşə sahibinə daha çox ehtiyacımız var. Universitetə qəbul olmaq, nəyin bahasına olursa-olsun ali təhsil haqqında diploma sahib olmaq, bir çox ölkələrdən fərqli olaraq bizim üçün daha xarakterik olan cəhətlərdən biridir. Görünür, bu diplom "sevdası" mentalitetimizdən irəli gələn bir xüsusiyyətdir. Halbuki, Fransa, Yaponiya, Almaniya kimi bir çox ölkələr, məhz peşə təhsil hesabına dünyanın inkişaf edən ölkələrinə çevriliblər.

Bu gün Almaniyada peşə məktəblərinin sayı ali təhsil müəssisələrinin sayından çoxdur. Yəni, doğrudanmı günümüzdə adi karton parçası qədər dəyərsizləşdirilən bir diplom üçün sistemi bu dərəcədə qəlizləşdirməyə, məzun və onların valideynləri üçün bu qədər əlavə problem və ən başlıcası isə həyəcan və stress yaratmaq vacibdir...? Doğrudanmı ali məktəbə daxil ola bilməyəni qınayaraq onu intihar həddinə çatdırmaq, kimlər üçünsə doğma övladının varlığından da əzizdir...? Neçə illərdən bəridir ki, cəmiyyətin tələbatına uyğun nəticələrə əsaslanan, təklifyönümlü, tələbatyönümlu və nəticəyönümlü kurikulumla bağlı konseptual sənəd qəbul etmişik, onun əsas vəzifəsinin təhsil sisteminin müəyyən etdiyi təlim məqsədlərini müəyyən etmək olduğunu bildirmişik, kurikulum prinsiplərinin müasir təhsil sisteminin formalaşmasında böyük rolu olduğunu qeyd etmişik. Onu da demişik ki, kurikulumlar nəticəsində əldə edilən xüsusiyyətlər şagirdin bilikdən çox təcrübə qazanmasına, həmçinin onların şəxsiyyət kimi formalaşmasına daha çox təsir edir. Çünki ənənəvi təhsil proqramının biliköyönümlü olmasından fərqli olaraq, müasir kurikulumlar bacarıq, səriştə və qabiliyyətə əsaslanmaqla şəxsiyyətyönümlüdür. "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nə də xüsusi bənd əlavə etmişik ki, ümumtəhsil məktəbinin vəzifəsi təkcə öz yetirmələrini zəruri biliklərə silahlandırmaq deyil, təhsilalanların meyil, maraq və potensial imkanları, fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların həyati bacarıqlara yiyələnməsini, yaradıcı, milli-mənəvi və ümumbəşəri dəyərlərə malik sağlam əqidəli, vətənpərvər, müasir dünyagörüşlü şəxsiyyət kimi formalaşmasını, müstəqil həyatda səmərəli təhsil və əmək fəaliyyətinə hazırlanmasını təmin etməkdən ibarətdir. Bununla belə məzunlarımıza hələ də lazımi şəkildə aşılamamışıq ki, bu illər ərzində aldıqları ümumi təhsil "cəmiyyətin, dövlətin maraqlarına uyğun olaraq, onların fənlər vasitəsilə müvafiq elm sahələri üzrə zəruri bilik və bacarıqlara yiyələnməsini, Azərbaycan xalqının dəyərləri və ümumbəşəri dəyərlər əsasında tərbiyə olunmasını, sağlam həyat tərzini, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrini dərk etməsini, müstəqil surətdə şəxsiyyəti formalaşdıran həyati bacarıqlar əldə etməsini, intellektual və fiziki inkişafını, cəmiyyətə inteqrasiyasını və sosiallaşmasını, rəqabət qabiliyyətli olmasını, peşə seçimini, əmək fəaliyyətinə hazırlığını və növbəti pillədə təhsil almaq imkanını təmin etmək" üçündür.

Təhsilalanların da əsas vəzifəsi dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməklə yanaşı müstəqil həyata hazırlanmaq, onlarda fəal vətəndaş mövqeyinin formalaşdırılması, dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək, xalqına, vətəninə layiq vətəndaşa çevrilməkdir. Bununla belə qarşıya qoyulan bu qədər zəruri vəzifələr içərisində istər orta ümumtəhsil məktəblərinin, istərsə də ali təhsil müəssisələrin vəzifəsi sanki, öz yetirmələrinə bir övuc nəzəri bilik ötürməkdən ibarət imiş. Təhsilin istər orta, istəsə də ali pilləsində bütün göstəricilər yalnız biliklə ölçülür, digər keyfiyyətlər əslində bir növ kölgədə qalmış olur.

Başqa sözlə, bilik təhsilalanların nailiyyətlərinin ölçülməsi və təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün yeganə meyar olaraq qalır. Başqa sözlə, biz hələ də təhsilin keyfiyyətini neçə nəfərin ali məktəbə qəbul olunması, neçə nəfərin maksimal bal toplaması ilə ölçürük. Hələ də qəbul edə bilmirik və ya qəbul etmək istəmirik ki, bal nisbi bir anlayışdır, təhsilin keyfiyyəti 700 ballıq şkala ilə və ən başlıcası isə bir-iki ilin nəticələri ilə ölçülə bilməz. Kurikulum ünsiyyət yönümlüdür. Kurikulumun vəzifəsi səriştəyə əsaslanan şəxsiyyət yönümlüdür. Bu gün bizim üçün əsas göstərici, neçə nəfərin diplomlu olması yox, neçə nəfərin həyatda fəal mövqe tutmasıdır, böyük hörmət, böyük nüfuz sahibinə çevrilməsidir... Səriştəsiz diplomçudan, səriştəli peşə sahibinə daha çox ehtiyacımız var. Bu gün peşə təhsilinə xüsusi diqqət yetirilir, peşə adamlarına böyük ehtiyac duyulur. Yeni ixtisaslar yaradılır, yeni müqavilələr imzalanır, yeni peşə mərkəzləri, əlavə iş yerləri açılır. Peşə təhsili səviyyəsini müvəffəqiyyətlə başa vuran məzunların – subbakalavrların topladıqları kreditlər bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınır. Ən başlıcası isə yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslər orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulur.

Digər tərəfdən peşə təhsilini bitirənlərin oxuduğu ixtisaslar üzrə ali məktəblərə qəbul olunması imtiyazları verilir ki, bu da onların digər subbakalavrlarla bərabər hüquqa malik olmasının təminatı deməkdir. Yalnız, bu yolla həm təcrübə qazanmaq, həm də təhsildə fasiləsizliyi və ardıcıllığı təmin etmək imkanları əldə oluna bilər. Ali məktəb diplomu olmadan da, cəmiyyətdə böyük nüfuz, hörmət sahibi olmaq olar, necə ki, belələri elə də az deyil".





***Ayşən Vəli***

ARAŞDIRMA

# Azərbaycanı xoşbəxt gələcəyə aparan lider



***Tarixin yaşanan hər günü təsdiq edir ki, Heydər Əliyev şəxsiyyətini, bu dahi insanın fenomenini bütün incəliklərinə qədər dəyərincə qiymətləndirmək düşünüldüyü qədər də asan deyildir-belə ki, Ulu öndər kimi dahilər min ildə bir doğulur və xalqının taleyində, onun tarixində silinməz izlər qoyur, öz məmləkətinin, ölkəsinin ən çətin, ağır dövründə xilaskar rolunu oynayır. Tarixin gedişinə təsir göstərən böyük siyasi liderlər irəli sürdükləri mütərəqqi ideyalarla xalqı öz ətrafında birləşdirməyə, hər bir addımda ictimai inam qazanmağa çalışmış, məhz bunun da sayəsində böyük uğurlara imza atmışlar. Fəaliyyətində daim ictimai mənafeni əsas götürən, xalqın dəstəyinə arxalanan siyasi lider konkret siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirmək, milli maraqları qorumaq əzmi ilə seçilir. Siyasətdə ictimai inam qazanmaq məramı demokratik dəyərlərin ön plana çıxdığı hazırkı “sürət əsri”ndə də qətiyyən aktuallığını itirmir. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi sayan və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansını qazanırlar. Tarixin sərt sınaqları ilə üzləşən Azərbaycan xalqı da taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi siyasi liderlə bağlamışdır.***

Bu dahi şəxsiyyətin fəaliyyətinə, yaşadığı ömür yoluna nəzər salanda aydın görünür ki, Ümummilli lider bir çox dünya şöhrətli siyasi xadimlərin edə bilmədiklərini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Tanrının xalqımıza bəxş etdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev həyatı boyu hər zaman xalqını, vətənini düşünmüş, Azərbaycanın öz müstəqilliyinə qovuşması və qazanılan bu azadlığın möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi arzusu ilə yaşamış, bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Bəşəriyyətin tarixi göstərir ki, milli dövlətçiliyini itirmək və dünya xəritəsindən tamamilə silinmək təhlükəsi ilə üz - üzə qalmış xalqlar taleyüklü sınaq anında məsuliyyəti öz üzərinə götürmüş qətiyyətli liderlərinin müdrikliyi, fenomenal idarəçilik keyfiyyətləri sayəsində mövcudluqlarını qorumuş, çətinlikləri dəf edə bilmişlər. Fenomenal rəhbərlik keyfiyyətlərinə malik belə şəxsiyyətlər cəmiyyətin üzləşdiyi sosial-iqtisadi, ictimai-siyasi və mənəvi - mədəni kataklizmlər dövründə xalqına düzgün yol göstərən xilaskar missiyasında çıxış etməyi bacarmış, həm də ümummilli liderlik zirvəsinə yüksəlmişlər. Hər bir dövrdə böyük liderlərə xas olan səciyyəvi cəhətlərdən biri də siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığının olmasıdır. Bu hər bir lider üçün vacib olan keyfiyyətdir, belə ki, yalnız bütöv bir millətə deyil, hətta kiçik partiyaya, qrupa rəhbərlik edən şəxs də siyasi proseslərin gedişini fəhmlə duymalı, gözlənilən uğur və uğursuzluqları əvvəlcədən hesablamağı bacarmalıdır. Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə qarşıya qoyduğu məqsədlərə yetişərək uğur qazanması, rəhbərlik etdiyi xalqı böyük fəlakət və faciələrdən qoruması məhz onun iti fəhmi və uzaqgörənliyi nəticəsində olmuşdur. Ümummilli lider Heydər Əliyev də məhz belə uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını əvvəlcədən duyan, çoxgedişli kombinasiyalar qurmağı bacaran, hadisələrə pozitiv təsir göstərən böyük şəxsiyyət və titanik bacarıqlı siyasi lider olmuşdur.

XX əsrin əvvəlləri kimi, sonları da Azərbaycan xalqı üçün mürəkkəb və ziddiyyətli, dinamik və taleyüklü proseslərlə səciyyələnən zəngin dövlət quruculuğu dövrü kimi tarixə qovuşmuşdur. Təbiidir ki, tarixə qovuşma prosesi müəyyən zaman daxilində baş verir və bu zamandan maksimum səmərəli yararlanma, onu xalqın, millətin inkişafına, gələcəyinə, dövlətin möhkəmləndirilməsinə yönəltmək missiyası ayrı-ayrı şəxsiyyətlərin siyasi fəaliyyəti, titanik bacarığı, onların adları ilə bağlı olur. Etiraf edək ki, tarix şəxsiyyəti, bu cür şəxsiyyətlər isə məhz tarixi yaradır. Müdriklər demişlər ki, şəxsiyyəti mühit və hadisələr yetirir, ancaq hadisələri də şəxsiyyətlər idarə edir və hadisələr özü də onların izini daşıyır-Ümummilli lider bir şəxsiyyət kimi möhtəşəm tarixi hadisədir.

Əminliklə deyə bilərik ki, Ulu öndərin əfsanəvi, xarizmatik liderə çevrilməsində onun həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməyi bacarması, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Məhz bunun sayəsində o harada olursa-olsun, hadisələrin fövqünə qalxıb, idarəçilik qabiliyyətini reallaşdıra bilmiş, lider imicini qorumuşdur. Liderlik onun xarakterindən, dünyagörüşündən, yaradıcılıq enerjisindən, qurub - yaratmaq həvəsindən yaranmışdır-böyük siyasətdə qarşıya qoyduğu məqsədlərin əksəriyyətinə yetişərək uğur qazanması, rəhbərlik etdiyi xalqı dəhşətli fəlakət və faciələrdən hifz etməsi isə dahi strateqin iti fəhminin, müdrikliyinin və uzaqgörənliyinin nəticəsi olmuşdur. Siyasi lider daim öz cəsarəti, çevik və rasional qərarları, ən çətin situasiyalardan optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. Ümummilli lider yalnız enerjisi, natiqlik məharəti ilə deyil, həm də ətrsfında olan insanların tələbat və ehtiyaclarını ifadə etmək bacarığı ilə fərqlənir, cəmiyyətdə ayrıseçkiliyə yol vermir, hər zaman haqqa, ədalətə söykənir. Zamanın nəbzini tutmağı, hadisələrə real qiymət verməyi, siyasi potensialını düzgün dəyərləndirməyi bacaran lider cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, milli inkişafın əsasına çevrilən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilir. Məşhur ukraynalı jurnalist və siyasi icmalçı D.Qordonun “Pole Çudes” verlişinin aparıcısı L.A.Yakuboviçlə müsahibəsində “Siz həyatınızda çox məşhurları, dahi şəxsiyyətləri görmüsünüz və şəxsən tanımısınız, sizdə ən böyük təəssüratı yaradan şəxsiyyət kim olmuşdur?” sualına bir az sükuta gedib: “Əgər siz dahilərdən danışırsınızsa, onda Heydər Əliyev”-deyə cavab verir. “Vaxtı yaxşı xatırlamıram, məncə bu Bakıda olan hansısa tamaşa vaxtı idi-onun mənimlə on dəqiqəlik görüşmək istədiyi haqda mənə məlunat verdilər, biz onun yanına gəldik, bu protokol üzrə olan görüş idi, hər şey dəqiq yerinə yetirildi, içəri girdi, hamının əlini sıxıb görüşdü, öz yerinə keçdi, təyin olunmuş on dəqiqə ərzində emosiyasız, gözünü qırpmadan mənə Azərbaycanla bağlı danışdı, nə etmək lazım olacağını bildirdi, vaxt tamam olanda mimikasını dəyişmədən sanki kiməsə müraciət edərək “Siz azadsınız”-dedi, hamı, mətbuat nümayəndələri belə çıxdı, sonra biz üç saat birlikdə söhbət etdik-bu həyatımda ikinci insan idi ki, nədənsə hər şeyi ona danışdım- mən onu ilk dəfə idi görürdüm, o gözlərdə olan nur məndə doğmalıq yaratmışdır, o inanılmaz həcmdə dahi olan insan, böyük qaya idi”. Yakuboviç verlişinin birində maşın uduşu müqabilində “SSRİ-ni kim xilas edə bilərdi?” sualını qoymuş və iştirakçının “Heydər Əliyev” cavabını qəbul etmişdir.

Ulu öndər Sovetlər dönəmində Azərbaycana rəhbərlik edərkən böyük təzyiqlərlə, təqiblərlə üzləşməsinə baxmayaraq heç bir çətinlikdən qorxmadan xalqda tarixi keçmişi, dili, mədəniyyəti, milli adət- ənənələri haqqında əsaslı təsəvvürlər formalaşdırmağa nail olmuş, azərbaycançılıq ideyasını, milli özünüdərki inkişaf inkişaf etdirmiş, xalqın tarixi yaddaşının özünə qaytarılması prinsipləri əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, bunların real siyasi faktlara çevrilməsinə nail olmuşdur. Tarixi təcrübə Ulu öndərin böyük uzaqgörənliklə söylədiyi "hüquqi cəhətdən müstəqil olmaqla real müstəqillik arasında çox böyük məsafə və olduqca ciddi maneələr var"- fikrini bir daha təsdiq etdi.

Elan olunmuş dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və ona dönməz, əbədi xarakter vermək üçün olduqca böyük işlər görülməlidir. Təəssüf ki, suverenliyin siyasi - iqtisadi, mənəvi - psixoloji, hərbi-hüquqi, ictimai - siyasi təməli qoyulan ilk illərdə Azərbaycanda hakimiyyət olanlar çox böyük imkanlardan istifadə edə bilmədilər. Bir çox mütəxəssislərin apardığı təhlillər göstərirdi ki, İttifaqın dağılması ərəfəsində keçmiş SSRİ - də cəmi bir neçə respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilərdi-bu respublikalardan biri də məhz Azərbaycan idi. Ulu öndərin respublikaya rəhbərlik etdiyi 70-ci illərdə respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaranmışdır-çox təəssüf ki, dövlət müstəqilliyinin ilk dövrlərində Azərbaycana rəhbərlik edən şəxslər dünyanın çox sürətlə dəyişən siyasi mənzərəsini nəzərə ala bilmədilər, həmin dövrdə Ulu öndərn sonralar qeyd etdiyi kimi, mövcud geosiyasi vəziyyət yeni strategiyanın formalaşmasını tələb edirdi. Ötən əsrin 70-80-ci illərindən respublikamızda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran sosial- iqtisadi, hüquqi və mənəvi intellektual mühit yaradan Ulu öndər xalqımızın məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir. Azərbaycan xalqı dahi liderinin rəhbərliyi altında yüksək iradə sərgiləməklə, milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toparlaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial formalaşdırmışdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Ümummilli lider Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görmüş, bu prosesi sürətləndirən mühüm addımlar atmışdır.

Hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır-belə ki, hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Azərbaycan xalqını keçən yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş, xalqın gələcək taleyi problemləri bütöv şəkildə Ümummilli liderin fəaliyyəti ilə strateji dövlət siyasəti müstəvisinə keçmişdir. Azərbaycanın hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir. Ulu öndər öz siyasi və əməli fəaliyyəti ilə xalqı öz ətrafında birləşdirə bilmiş, müstəqil Azərbaycanın memarına çevrilmiş və onları xoşbəxt gələcəyə aparan lider olmuşdur. Deyildiyi kimi, boş zaman yoxdur, boşa keçən zaman var-məhz fəaliyyətinin hər dövründə zamanı boşa keçirməyən, əksinə, zamanı əməlləri ilə zənginləşdirən Ulu öndərin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm, qüdrətli müasir dövlətin yaradılması olmuşdur. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən milli lider milli dövlətçiliyi və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutmuş, xalqın öz Vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərindəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur.

**_Ümummilli liderin xilaskarlıq missiyasının həyata keçirilməsində müstəqil dövlət quruculuğunda istifadə olunan qüdrətli vasitələr sırasında azərbaycançılıq məfkurəsi, milli - mənəvi dəyərlərin gücləndirilməsi həlledici rol oynayır. Ötən əsrin 90 - cı illərinin əvvəllərində ölkənin başının üstünü almış təhlükələr və total böhran separatçı meyillərlə müşayiət olunmaqla daha da dərinləşərək əslində Azərbaycanı real parçalanmaq həddinə çatdırmışdır._**

Tarixi şəxsiyyətlərin böyüklüyü illər keçdikcə daha aydın görünür-millətinin tarixində dərin iz qoymuş, onun keçmişini yaratmış və gələcəyini müəyyən etmiş insanların da işi və ideyaları zaman məsafəsindən daha uca görünür və daha aydın nəzərə çarpır. Təbiidir ki, belə şəxsiyyətlərin taleyi həmişə çətin və keşməkeşli olur, çünki onlar özlərinin bütün mənalı ömürlərini fədakarcasına vətəninin, millətinin tərəqqisinə, onun dövlətinin möhkəmləndirilməsinə həsr edirlər. Keçmişin və yaşadığı dövrün reallıqlarını nəzərə alaraq mümkün olanı, hətta ondan da artığını, yəni mümkün olmayanı da etmiş bu şəxsiyyətlərin gözəl işləri, xeyirxah əməlləri, müdrik ideyaları xalqın və dövlətin gələcəyinə işıq salır. Belə şəxsiyyətlərin varlığı, ilk növbədə onları yetirən millətin xoşbəxtliyidir və Ulu Tanrının həmin xalqa verdiyi ilahi bəxşişdir. Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Ümummilli liderin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqa bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Liderə xas olan xüsusiyyətlərdən biri də öhdəsinə götürdüyü bütün işləri mükkəməl bilmək, görəcəyi işlərdə hamıya nümunə olmaq keyfiyyətidir. Ümummilli liderlə bağlı xatirəsini mənimlə bölüşdürən, indi onun adını daşıyan sarayın keçmiş direktoru, Xalq artisti Kərim Kərimov maraqlı bir əhvalat danışmışdır: "Onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması məsələsi artıq həll olunmuşdur, Bakıda işləri təhvil verirdi. Məni çağırıb yeni təyin olunmuş sahələrə aid – ağır sənaye, maşınqayırma, tibb, təhsil, nəqliyyat və s. – kitablar gətirməyi tapşırdı. Yüzdən çox kitab apardım, iki aydan sonra o, Moskvaya getdi və mən kitabları götürmək üçün onun iş yerinə gəldim. Doğrusu mənim üçün maraqlı idi ki, o bu iki ay ərzində vaxt tapıb kitablara baxa bilmişdirmi? – kitabları bir-bir vərəqlədim, hər səhifədə, demək olar ki, hər abzasda cümlənin altından xətt çəkilmiş, yanında qeydlər aparılmışdır". Təyinat aldığı yeni işi onun üçün təzə olduğundan Ulu öndər məhz vəzifəsinə bu cür məsuliyyətlə hazırlaşmışdır.

Daha bir hadisəni həyəcansız xatırlaya bilmirəm – Nazirlər Soveti sədrinin birinci müavini olarkən həkimlərin Ümumittifaq qurultayında hesabat məruzəsi ilə Heydər Əliyev çıxış etdi. Həmin vaxt mən Moskvada idim və növbəti gün Moskva Dövlət Universitetində olanda hamının Heydər Əliyevin çıxışı ilə bağlı söhbət etdiyinin şahidi oldum. Çıxışla bağlı yüksək pafosla danışan professorlardan biri qəflətən mənə müraciət edərək Heydər Əliyevin ixtisasını soruşdu və mən dərhal "Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib" deyə cavab verdim. Professor dərhal etirazını bildirdi, "Siz səhv edirsiniz, o tarixçi ola bilməz, onun tibbi təhsili var, dünən qurultaydakı çıxışında tibblə bağlı heç yerdən oxumadan çıxış etməsi, tibbi ləvazimatların, dərmanların adlarını sərbəst tələffüz etməsi onun tibbi təhsil aldığını göstərir". Professorun qətiyyətli etirazı az qala məndə şübhə doğurdu, onun əvvəlcə iki il Azİ-də, sonra isə tarix fakütəsində oxuduğunu, həyat yoldaşı Zərifə xanımın həkim olduğunu bir də təkrar etdim. Professorun inadkarlığı həmin vaxt mənim öz fikrimi təsdiq etmək üçün Bakıya zəng etməyimlə nəticələndi.

Azərbaycan xalqının zəngin düşüncəli lideri, müdrik rəhbər və dahi şəxsiyyəti olan Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının milli lideri, zəmanənin böyük siyasi xadimi, hər zaman türklərin qəlbində yaşayacaq əfsanədir-o bütün fəaliyyəti dövründə türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində gərgin fəaliyyət göstərmişdir. Ulu öndər bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmış, türk dünyasının qüdrətli bir insanı, bütün türk dünyasında Atatürk kimi özünəməxsus yeri olan böyük rəhbər kimi ölməzlik qazanmışdır. Ümummilli lider amili Azərbaycanda həyati əhəmiyyətə malik bütün dəyişikliklərdə mühüm və həlledici rol oynamışdır. Regionda gedən siyasi prosesləri diqqətlə izləyən, parçalanma, qarşıdurma təhlükəsinin labüdlüyü anında xalqın, Vətənin yanında olan Ulu öndər öz dövlətçilik təcrübəsinin bütün variantlarından istifadə etməli olmuş, zəkasının nuru ilə məmləkətimizi bürümüş zülməti yox etmiş, onu aydınlığa çıxararaq parlaq gələcəyə aparmışdır. Azərbaycanın müstəqillik yolu ilə inamla addımlaması, uğurlarla zənginləşməsi onun şəxsiyyət bütövlüyünün, əqidəcə saflığının nəticəsi olmuşdur.

Azərbaycanın taleyüklü problemlərinin həllində, müqəddəs milli vəzifələrin uğurla həyata keçirilməsində, beynəlxalq ictimai rəydə Vətənimizin daha böyük uğurlar qazanmasında bu tarixi şəxsiyyətin misilsiz xidmətləri təsdiqlənmiş və qəbul edilmişdir-onun həyat və idarəetmə salnaməsi, siyasi peşəkarlığı və yenilməz iradəsi bu vəzifələrin yerinə yetirilməsində başlıca təminat olmuşdur. Azərbaycanın bölüşdürülməsi və daxili toqquşmalar, vətəndaş qarşıdurması və etnik toqquşmalar içərisində boğulmasını nəzərdə tutan məkrli planlar məhz Heydər Əliyev fonameni sayəsində aradan qalxmışdır. Ulu öndər Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gerçəkləşdirdiyi planlar artıq bugünkü Azərbaycanın reallığına çevrilmişdir-onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Heydər Əliyev zəngin tarixə malik bir xalqın özünütəsdiqi üçün zəruri olan milli- mədəni məkanda yaşamaq imkanını reallaşdırdı. Nəticədə, milli yiyəlik hissinə sahib olan, dövlətçilik təfəkkürünə yiyələnən, ölkənin bu günü və sabahı üçün məsuliyyət hissi ilə yaşayan azərbaycanlı vətəndaşın obrazı, dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur.

Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsi üçün, hər şeydən əvvəl, yeni konsepsiya işlənib hazırlanmalı idi-bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinə və bununla da insan hüquqları və azadlıqlarının müdafiəsinə təminat yaratmalı idi. 1993 - cü ildə Ümummilli liderin xalqın təkidli və tələbi ilə hakimiyyətə yenidən qayıdışı ölkəni həm də xaosdan, dövlətçiliyini itirmək təhlükəsindən xilas etmiş oldu, Azərbaycanın beynəlxalq arenada özünəlayiq yer tutmasına, beynəlxalq münasibətlərin subyektinə çevrilməsinə istiqamətlənən qlobal işlərə start verildi.

Dünyəvi qloballaşma və modernləşmə prosesinin geniş vüsət aldığı bir dövrdə ümumibəşəri inkişaf dinamikasından kənarda qalmaq qüyri-mümkün idi. Hindistanın görkəmli dövlət xadimi C. Nehrunun yazdığı kimi: "Bizim idealımız və məqsədimiz tarixi meyillərə zidd gedə bilməzdi". Dünyadan təcrid olunmaq milli təhlükəsizliyə zəmanət vermirdi-odur ki, indiki dövrün qeyri - adiliyi və ondan irəli gələn tələblərlə hesablaşmaq lazım gəlirdi. Ulu öndər müstəqilliyimizin, Azərbaycan dövlətçiliyinin təhlükə mənbələrini və ona qarşı mübarizə metodlarını müasirləri arasında daha aydın görürdü-o bütün fəaliyyəti boyu ideoloji mübarizə cəbhəsində bir anlıq fasiləyə, istirahətə yol vermədən daim döyüş və müdafiə mövqeyində ayıq dayanmışdır.

Ulu öndərin bütün fəaliyyətinin başlıca qayəsini məhz bu ideya təşkil edir-ölkənin hər bir vətəndaşı müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün şəxsi məsuliyyət daşıyır-bunun üçün isə, ilk növbədə hər kəsdən milli həmrəylik tələb olunur. "Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır "-bu dahi liderin tövsiyyəsi idi. Təsadüfü deyil ki, Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olmuşdur-"Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir"-deyən Ulu öndər Dünya azərbaycanlılarının I qurultayında ona məxsus müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyasının konturlarını bir daha dəqiqləşdirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır" fikrini söylədi və açıq bəyan etdi ki, "bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

Ümummilli liderin xilaskarlıq missiyasının həyata keçirilməsində müstəqil dövlət quruculuğunda istifadə olunan qüdrətli vasitələr sırasında azərbaycançılıq məfkurəsi, milli - mənəvi dəyərlərin gücləndirilməsi həlledici rol oynayır. Ötən əsrin 90 - cı illərinin əvvəllərində ölkənin başının üstünü almış təhlükələr və total böhran separatçı meyillərlə müşayiət olunmaqla daha da dərinləşərək əslində Azərbaycanı real parçalanmaq həddinə çatdırmışdır.

# Azərbaycanı xoşbəxt gələcəyə aparan lider

Əvvəli-Səh-9

Ölkə üçün üzləşdiyi təhdidlərin ən təhlükəlisi olan separatizmin dəf edilməsi ifrat dərəcədə zəifləmiş mərkəzi hakimiyyət şəraitində yalnız ümumi birləşdirici ideya əsasında mümkün idi-belə bir ideya yalnız Heydər Əliyevin zəkasının nəticəsi kimi meydana gələ bilərdi.

Azərbaycançılıq məfkurəsinin Ulu öndərin tarixi qayıdışının Azərbaycan gerçəkliyinə gətirdiyi ən dəyərli və gərəkli ideya olduğunu qeyd etmək əslində bir daha onun böyüklüyünü, liderliyini etiraf etməkdir. Azərbaycandakı dayanıqlı sabitlik, milli birlik və həmrəylik sözün həqiqi mənasında məhz bu dahi şəxsiyyətin azərbaycançılıq baxışları əsasında mümkün olmuşdur. Onun 1993 - cü ilin həyəcanlı anlarında möhtəşəm qayıdışından başlanan xilaskarlıq missiyası qüdrətli, müstəqilliyinin əbədi, dönməz və sarsılmaz olması heç kimdə şübhə doğurmayan Azərbaycan dövlətinin qurulması ilə nəticələndi. Bu gün Heydər Əliyevin adı tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olmuş, müstəqil Azərbaycan dövləti isə Heydər Əliyevin şah əsəri olaraq qəbul edilmişdir.

Hər bir cəmiyyətdə demokratik dəyişikliklərin başlıca mahiyyəti insanı önə, diqqət mərkəzinə çəkməkdir – idarəetmədə demokratikləşmə prosesləri islahatlara yönəldilirsə, onda islahatlar cəmiyyətdəki hər bir insanın taleyinə təsir göstərir. Söhbət şəxsiyyət və hakimiyyətin qarşılıqlı əlaqələrinin prinsipcə yeni əsaslarının yaranmasından, şəxsiyyət və dövlətin qarşılıqlı münasibətlərində yeni üslubun formalaşmasından gedir. Bu baxımdan, son illərdə Azərbaycanda demokratik transformasiya tamamilə yeni məzmun və forma almışdır. Uğurla gerçəkləşdirilən iqtisadi strategiya nəticəsində vətəndaşların maddi rifah halının yüksəlməsi demokratikləşmə proseslərinin cəmiyyətdə adekvat dərkinə əlverişli zəmin yaradır. Aktiv inkişaf fazasına daxil olmuş respublikamızda demokratik dəyərlərin inkişafı və total şüurda mənimsənilməsi üçün son illər əlverişli iqtisadi, siyasi, mənəvi mühit formalaşır. Bu prosesin qayəsində respublikamızda liberal dəyərlərin, insan və vətəndaş hüquq və azadlıqlarının prioritetinə əsaslanan, cəmiyyətə təkamül yolu ilə əxz edilən suveren demokratiya modelinin formalaşdırılması məqsədi dayanır. Respublikamız Qərb dövlətlərinin bir neçə yüzillikdə keçdiyi kapitalist inkişaf yolunu çox qısa müddətdə qət etmiş, siyasi mühitin liberallaşması, demokratikləşmə sahəsində həlledici uğurlar qazanmış, dünyaya inteqrasiya sahəsində inamlı addımlar atmışdır. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Ulu öndərin səmərəli fəaliyyəti, onun liderlik bacarığı sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, xalq qarşısındakı titanic xidmətlərinə görə Azərbaycan xalqının Ümummilli liderinə çevrilmişdir. Azərbaycanın hərtərəfli inkişafı üçün bu siyasi liderin hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkd

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Ulu öndər öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir-xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Azərbaycanı parçalanmaqdan qurtaran, beynəlxalq aləmdə tanıdan, bugünkü firavan, azad həyatımızın banisi məhz Ümummilli lider Heydər Əliyevdir-o, Azərbaycan xalqının dahilik rəmzidir.

Prezident İlham Əliyevin fəaliyyətinin təhlili göstərir ki, bu müddətdə istiqamətləri Ümummilli lider tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar dövlətçilik və milli maraqların təmini üçün uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əxz etmişdir-cənab İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində böyük uğurlara imza atmaqla Ulu öndərin siyasi varisi, onun güclü dövlətçilik, sosial - iqtisadi inkişaf kimi missiyalarının, azərbaycançılıq ideologiyasının layiqli daşıyıcısı olduğunu təsdiq etdi. Qətiyyətlilik, prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı dövlətin inkişafını, müxtəlif sferalarda qazanılan uğurları şərtləndirən əsas amillərdir-Heydər Əliyev kimi zəngin dövlətçilik və idarəçilik təcrübəsi olan siyasət dühasından bu cür keyfiyyətləri mənimsəyən Prezident İlham Əliyevin siyasi iradəsi Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsinin, ölkənin inkişafının leytmotivini təşkil edir-onun həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyimiz uğurlar, siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, praqmatizmi və yüksək idarəçilik keyfiyyətləri cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır.

Cəmiyyətin tarixi inkişaf qanunauyğunluğunun özünüqoruma instinktindən doğan bu müqavimət hissinin reallaşması isə milli lider amilindən asılıdır. Yeni siyasi şəraitdə Azərbaycanda bu ağır və məsuliyyətli missiyanı məhz cənab İlham Əliyev çiyinlərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin, o cümlədən türk əxlaqının, türk tarixinin böyük himayədarı qismində çıxış etmişdir. Son illər ərzində dəyərlərimizi, tarixi köklərimizə bağlılığı, milli - mənəvi inkişaf istiqamətlərini yenidən, dərindən təhlil və tədqiq etməyə başlamışıq. Bu dövrdə yaşanan siyasi, iqtisadi problemlər əsas diqqəti multikulturalizmin-yeni dünya nizamında mədəniyyətlərin və sivilizasiyaların müxtəlifliyini və qarşılıqlı münasibətlərini əks etdirən anlayış-önəmli mövqe tutduğu çoxqütblü yeni dünya nizamının formalaşmasına, monosentrik dünyanın transformasiyasına yönəldir. Qlobal maliyyə böhranı hazırkı dünya sisteminin yeni tənzimləyici mexanizmlərinin işlənib hazırlanmasını, maliyyə - iqtisadi subyektlərin, dövlətlərin öz məsuliyyətlərini dərk etməsini zəruri edir. Belə bir şəraitdə dəyərlərimizi anlamaq, onları həyatımızın tərkib, ayrılmaz hissəsinə çevirmək və milli əsaslara söykənən siyasi-iqtisadi inkişaf istiqamətlərimizi uğurla davam etdirmək günün tələbidir-bu gələcək üçün bizim ən ümdə məqsədlərimizdən biridir.

***Yaşar Əhmədov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin***
***"Humanitar fənlər" kafedrasının dosenti***

# Heydər Əliyev ideyaları əbədiyaşardır!




"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

19 may 2023-cü il tarixində YAP Laçın rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Ağcabədi rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.





Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

# Qərbi Azərbaycan: Doğma torpaqlara qayıdış!






*Qərbi Azərbaycan sakini Elmira Rüstəmovanın SİA-ya müsahibəsini təqdim edirik:*

# "Kəndimizdən çıxandan sonra çətin anlar yaşamışıq"





***- Deportasiya günlərini necə xatırlayırsınız? Baş verən qarışıqlıqdan necə xəbər tutdunuz?***

- Mənim 20 yaşım olanda bizə xəbər verdilər ki, ara qarışacaq və bizi kənddən çıxaracaqlar. Hələ deportasiyadan iki il qabaq idi. Bir müddət keçdi. Sonra dedilər ki, ermənilər bizi orada saxlamaq istəmir. Həmin ərəfələrdə bir gecə atamgilin evinə gəlmişdim və dedilər ki, hazır olun, hər an ermənilər basqın edə bilər. Sonra xəbər gəldi ki, ermənilər Vartana kəndini qırıblar. Biz də qorxuya düşdük və rusların evlərində, padvallarında gizlənməyə başladıq. Dayımın vasitəsilə Vartana sakinlərini bizim kəndə gətirdilər. İki gündən sonra bizim kəndə də gəldilər. Dayım Moskvadan əhalini kənddən çıxarmağa tank, maşın versinlər deyə komissiya tələb etdi. Həmin gecə 3-4 tank gəldi. Sakinlərin bəziləri ekarusla, bəziləri tanklarla kənddən çıxarılırdı. Sırf buna görə dayımı öldürmək istəyirdilər. Axırda biz də tankla Dilican sərhədinə gəldik. Sərhədə çatana yaxın tankımız qırıldı. Ondan sonra iki xəbərdarlıq atəşi açdılar və yeni tankın gəlişini gözlədik. Artıq ermənilər başımızın üstünü kəsdirmişdilər. Bizim tankda da 40 günlük körpə var idi. Anası bir körpəyə görə neçə adam qırılmasın deyə ağlayanda övladını sinəsinə necə sıxmışdısa, nəfəsi kəsilmişdi. Dayımın köməkliyi ilə uşaq yenidən həyata qayıtdı. Elə qorxu içində gözlədiyimiz anda yeni tank köməyimizə gəldi. Çox çətin anlar, dəhşətli qorxular içində olmuşuq. Bir kazarmada, daha sonra bizi ermənilərlə dəyişdirdilər və üç gün də Qazaxda qaldıq. Biz Qazaxda olanda kəndimizdə zəlzələ oldu. Əgər zəlzələ olmasaydı, bəlkə də oradan bir nəfər belə sağ çıxmayacaqdı.



***- Kənddə ermənilərin sizə münasibəti necə idi?***

- Kənddə günlərimiz yaxşı keçib. Amma nə qədər olmasa da, ermənilər hər zaman bizə təzyiq edirdilər. Bəzi erməni müəllimlərimiz bizi döyürdü, amma bəzi eyniəsilli müəllimlərimiz də var idi ki, bizi incitmirdilər. Biz malakanların içində yaşayırdıq. Orada 4-5 ev erməni ailəsi yaşayırdı. Doğrudur onlarla aramız pis deyildi, amma Hamzaçiman kəndinə gedəndə bizə xor baxırdılar. Məsələn, çörək növbəsində bizi itələyərdilər, söz atardılar. Uşaq olsaq da, yadımızda qalıb. İmkan vermirdilər ki, yaxşı yerdə işləyək. Onlarla münasibətdə olmağımızı istəmirdilər.

***- Uşaqlığınızdan hansı xatirəniz yadınızda qalıb?***

- Bir dəfə atamla anama sovxozdan ekskursiyaya getmək üçün məzuniyyət vermişdilər. Qardaşımla məni Zəngəzurda ekskursiyaya gətirdilər. Orada öz ermənilərinə dərs keçirdilər ki, guya türklər onları necə öldürüb və s. Öz millətlərində bizə qarşı aqressivlik yaratmağa, nifrət hissi oyatmağa çalışırdılar. Azərbaycanlılar haqqında yaxşı bir şey eşitmək istəmirdilər. Bizə həmin ekskursiyada öz dilimizdə danışmağa imkan vermədilər. Bir sözlə, bütün ekskursiyanı burnumuzdan gətirdilər.

***- Bakıya gəldikdən sonra necə adaptasiya oldunuz? Burada sizə qarşı münasibət necə idi?***

- Biz Bakıya ilk gəldiyimiz günlərdə uyğunlaşa bilmirdik. Hər kəs haqqımızda bir söz deyirdi. Biz də gah qəbul edirdik, gah əsəbləşirdik. Sözün düzü, bir qədər utanırdıq. Düşünürdük ki, bəlkə bizi öz yurdumuza geri qaytararlar. O zamanlar özümüzü Bakıda qərib kimi sayırdıq. Doğrudur, Azərbaycanın hər yeri bizimdir, vətənimizdir. Amma yenə də ürəyimiz öz kəndimizdəydi.

***- Erməni dilini bilirsinizmi?***

- Erməni dilini yaxşı başa düşürəm, bir qədər danışa da bilirəm. Atam, anam, dayım və s. erməni dilini daha yaxşı bilirdilər. Onlarla birgə yaşamışıq deyə istər-istəməz dillərini də bilirdik. Amma daha çox rus dilindən istifadə edirdik.

***- Kənddə nə işlə məşğul olurdunuz? Günləriniz necə keçirdi?***

- Biz kənddə mal-qara ilə, kənd təsərrüfatı ilə məşğul olurduq. Daha çox kartof, kələm kimi məhsullar əkirdik. Turşumuz məşhur idi. Müxtəlif turşular qoyurduq və Rusiyada satırdıq.

Atam ot biçərdi, biz də anamla birgə gedib otu dırmıqlayardıq. Bizim yerlərin çoxu meşəlik idi. Meşələrdən moruq, qarağat kimi meyvələr yığırdıq. Atam ocaq düzəldərdi, biz də təbiətin nemətlərindən müxtəlif otlu çaylar dəmləyərdik. Yəni, çox maraqlı günlərimiz keçib.

***- Bildiyimiz qədəriylə Qərbi Azərbaycan İcmasının üzvüsünüz. İcmanın fəaliyyəti haqqında nə düşünürsünüz?***

- Qərbi Azərbaycan İcmasının yaranmasına çox sevindik. Sağolsun Azərbaycan Prezidenti İlham Əliyev öz doğum günündə İcmanın açılışını etdi. Mən də Qərbi Azərbaycan İcmasının üzvüyəm. Nə təklif olunsa, qayıdışımızın təmini üçün nə deyilsə, etməyə hazıram.

***- Əgər qayıdış mümkün olsa, yenidən Qərbi Azərbaycanda yaşamaq istəyərsiniz?***

- Əlbəttə ki, öz dədə-baba yurduma qayıtmaq istəyərəm. Orada mənim uşaqlığım, gəncliyim keçib. Ona görə də kəndimizi yenidən gəzmək istəyərdim. Amma yaşamaq bəlkə də mümkün olmaz. Çünki artıq valideynlərimiz, böyüklərimiz həyatda yoxdur. Necə yaşayarıq ki?! Qayıtsaq, ilk olaraq dağlarımıza gedib hər yanı seyr etmək, oranın havasını nəfəsimə çəkmək istəyərdim.

***- İllərdir, doğma yurdunuzdan ayrısınız. Yəqin ki vətən həsrəti çəkirsiniz. Bu illər ərzində heç olubmu ki, kəndiniz yuxunuza girsin?***

- 30 ildən çoxdur ki, vətənimdən didərgin düşmüşəm. Bu yaşa çatmışam amma hələ də evimiz, yollarımız, kəndimiz, orada keçirdiyimiz günlər yuxuma girir. Nə vaxt ki kəndimizi, oradan necə uzaq düşməyimiz haqqında fikirləşirəm, həmin gün yuxuma girir. Ayılandan sonra pis oluram, ağlayıram. Həmin an orada olmaq, yurdumun havasını içimə çəkmək istəyirəm. Düşünürəm ki, görəsən nə vaxtsa geri qayıdacağıqmı?!

- Son olaraq, əgər bilsəniz ki ermənilər sizi eşidir, onlara nə demək istəyərdiniz?

- Onlara demək istəyərdim ki, bu düşmənçilikdən əl çəksinlər, daha qan tökməsinlər. İki dövlətdə də canlar gedir, analar gözüyaşlı qalır. Biz daha şəhid vermək istəmirik. Onsuzda Qarabağ da, Qərbi Azərbaycan da bizimdir. Bunu bütün dünya bilir. Özlərini çox yormasınlar.

**Ləman Əlizadə**

# Azərbaycan cəmiyyətini səciyyələndirən dəyərlər

***30 ilə yaxın ermənilərin işğalı altında qalan ərazilərimizdə törətdikləri vandallıq ağıla sığmayan vəhşilikdir. Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirilib. Ərazilərdə abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına zidd olsa da işğal altında və Ermənistanda qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib.***

İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq,



tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib."

Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər şəhərlərimizdə Ermənistan mədəni soyqırımı törədib, bu ərazilərdə dini ziyarətgah, məscid, muzey, arxeoloji yer, məzarlıq və çoxlu sayda digər mədəni və dini abidələri məhv ediblər. Dağıdılan dini abidələrimizə nəzər salarkən Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi.

## İSLAM DÜNYASININ BİR PARÇASI

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Son illərdə Azərbaycanda yeni məscidlərin tikilməsi və ya təmir edilməsi milli mənəvi dəyərlərimizə olan diqqətdir. Xalqımız üçün çox böyük dəyər kəsb edən Bibiheybət, Təzəpir, Əjdərbəy, 743-cü ildə tikilmiş Şamaxı məscidi və başqaları insanların ixtiyarındadır. Dövlət başçısının tapşırığına əsasən, Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o demək idi ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcəkdir. Artıq o zaman yetişdi. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, dövlətimiz tərəfindən ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərilir. İşğaldan azad olan məscidlərimiz bərpa olunurlar.





## "SANKİ VƏHŞİ QƏBİLƏ KEÇİB BURADAN"

Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. Şuşa mağarası, Şuşanın qala divarları, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi də ermənilər tərəfindən tamamilə dağıdılmışdı. Dövlət başçısının bildirdiyi kimi, azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir: "Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam".



## MƏDƏNİ-DİNİ ABİDƏLƏRƏ YENİ HƏYAT VERİLİR

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən, mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub. Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar sökülərək binanın tarixi formasına qaytarılması işləri yerinə yetirilib.

Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, eyni zamanda Saatlı məscidinin açılışı görülən işlərin uğurla aparılmasından xəbər verir.

Təbii ki, görülən bu işlərdə əsas məqsəd vətəndaşların rahat ibadət etmələrini təmin etməkdir. Şübhəsiz, dinə bu cür qayğının təməlində milli mənəvi dəyərlərimizin qorunması, qloballaşan dünyada milli özünəməxsusluğun itirilməsinin qarşısının alınması, azərbaycançılıq məfkurəsinin təbliği və gəncləri milli ruhda yetişdirmək istəyi durur. Ölkədə formalaşan bu dəyərlər Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

# “Soros”çular başsız qalıb



***Bu gün birmənalı şəkildə demək olar ki, cəmiyyətin müxalifətə bəslədiyi dərin nifrətə baxmayaraq, liderciklər öz amplualarından əl çəkmirlər. Yenə də sərsəm, anormal fikirlərini yaymaqda davam edirlər. Hər dəfə də müxalif ünsürlərin yaydıqları şər-böhtan xarakterli məlumatlara dərhal xaricdəki qüvvələr reaksiya verir, hay-küylü bəyanatlar və hesabatlar yayırlar. Müxaliflər daha çox "Freedum Hous", "Soros" kimi qaraniyyətli fəaliyyətləri ilə seçilən təşkilatlarla əməkdaşlıq edir, onlara hər cür formada yarınmağa çalışırlar. Təbii ki, qarşılığında ödül alırlar.***

Hətta məslək və əqidələrini qara pulparaya satan müxaliflər Azərbaycan Ordusunun Qarabağda şanlı zəfər qazanmasına kölgə salmağa cəhdlər göstərirlər. Misal olaraq, Qaragöl ətrafında Azərbaycan Ordusunun mövqelərini bir qədər irəli çəkən zaman Ə.Kərimli Sevinc Osmanqızının TV-sinə çıxaraq bunun yolverilməz olduğunu bildirdi. Eynilə ermənilər kimi Fəhmin Hacıyev, Ə.Kərimli, S.Osmanqızı, A.Hacılı və digərləri mövqelərimizin Qarabağda möhkəmlənməsində, separatçı, əli silahlı erməniləri zərərsizləşdirməyimizdən ciddi narahatlıq keçirib hay-küy salmışlar. Bu gün də eyni ampluadadırlar. Deyilənlərə və yazılanlara, həm də araşdırmalara görə, müxalif məxluqları hürdürən Corc Sorosun pullarıdır. O, C.Soros ki, artıq ciddi təlatümlər yaşayır. Hətta dünya mətbuatı yazır ki, C.Soros ölüb. Lakin yayılan məlumat hələ ki, öz təsdiqini tapmayıb. Ümumiyyətlə, müxtəlif vaxtlarda C.Sorosun vəfat etməsi ilə bağlı xəbərlər yayılıb. 2013-cü ildə “Reuters” Sorosun dünyasını dəyişməsi barədə məlumat yaymış, lakin yalan olduğu məlum olduqdan sonra nəşr üzr istəmişdi. Corc Soros macar əsilli amerikalı investor, iş adamı və bəzi ölkələrdə narıncı inqilabların əsas maliyyəçisidir. O, 1930-cu il avqustun 12-də Macarıstanın paytaxtı Budapeştdə anadan olub. Yəhudi olduğu üçün İkinci Dünya Müharibəsi zamanı ailəsi ilə birlikdə Macarıstandan qaçaraq İngiltərədə məskunlaşıb. Orada London İqtisadiyyat və Maliyyə Məktəbində PhD dərəcəsi alıb. C.Soros maliyyə bazarlarında və investisiya strategiyalarında müxtəlif maxinasiyalar etməklə böyük məbləğdə pullar qazanıb. O, 1992-ci ildə çökən Britaniya funt sterlinqinə qarşı spekulyativ pul qazanması ilə tanınıb. Soros Açıq Cəmiyyət Fondu adlı şəbəkə yaradıb və bu fondlar vasitəsilə insan haqları və demokratiya sahələrində layihələrə dəstək verib. Əslində isə, öz ictimai və siyasi maraqlarını həyata keçirməyə çalışıb. Müəyyən hallarda istəyinə də nail olub.

### Sorosun adı terroru dəstəkləyən şəxs kimi tanınır

Məlumatlara istinad etsək aydın olur ki, C.Soros ən çirkin işlərə baş vurur, ölkələrdə iğtişaşların, qarşıdurmaların törədilməsinə öz dəstəyini göstərir. Soros ABŞ-ın daxili siyasətinə də nüfuz edir, ölkənin və müxtəlif siyasi kampaniyalara maliyyə dəstəyi göstərir. D.Trampın hakimiyyəti dövründə bir neçə senator tərəfindən Trampdan Sorosun terrorçu kimi tanınması istənilib. Bununla bağlı petisiya 60 mindən çox imza toplamışdır. Lakin Trampın hakimiyyəti uzun çəkmədiyindən istək və tələb yarımçıq qalmışdır. Əgər Tramp ikinci müddətə prezident seçilsə idi, çox güman ki, C.Soros terrorçuluğu maliyyələşdirən şəxs kimi tanınıb həbs olunacaqdı. Hələlik isə, Soros Fondu bəzi yarım müstəqil dövlətlərdə öz planlarını həyata keçirməkdədir. Ermənistanda daha çox meydan sulayan bu təşkilat Paşinyan hakimiyyətinin bəzi qərarlarının qəbul edilməsində müstəsna rol oynayır. İddialara görə, Paşinyan hakimiyyətinin müəyyən nazirliklərinin əməkdaşlarının aylıq ödənişlərini Soros Fondu həyata keçirir.






“Ermənitanda hökumət dəyişikliyindən sonra Açıq Cəmiyyət Fondlarının (Soros fondu) veb saytında Ermənistanın bərpa olunmasına yönəlmiş zəruri islahatlar konsepsiyası (yol xəritəsi) dərc edilib. Həmin konsepsiyaya görə sahələr üzrə oliqarx Corc Soros tərəfindən maliyyələşdirilən, artıq ölkəmizdə dərin köklərə sahib olan və hökumət səviyyəsində məsələlər həll edən fond gələcək fəaliyyətlərini təqdim etmişdi”. Bu fikirlər Ermənistanda dərc olunan “168.am” nəşrində qeyd olunub. Məqalədə qeyd olunur ki, konsepsiyanın başlığının özü belə dəhşətlidir, sözdə konsepsiya adlanan bu sənədi sahələr üzrə araşdıranda, ciddi maliyyə, insan və digər qaynaq sərmayələri hesabına bunu addım-addım həyata keçirdiklərini, 2018-ci il hakimiyyət dəyişikliyini dəstəklədiklərini və bunun üçün hansı təminatları əldə etdiklərini başa düşürsən: “İllərdir dövlət işğalının əsas vasitə və xüsusiyyətlərindən biri hakimiyyətin üçüncü qolu olan məhkəmələrin qanunsuz nəzarəti olub. Hakimlər təyin olunan andan etibarən nəzarət altına alınıblar. Fərqli vaxtlarda hakimlərin təyin olunması üçün fərqli mexanizmlər olmasına baxmayaraq, hamısı hakim rejimin və ya partiyanın (əvvəllər prezidentin, daha sonra səs çoxluğu ilə olan partiyanın adından) məhkəmələrin tərkibini müəyyənləşdirəcək şəkildə qurulub. Siyasi qərarlarla seçilən həssas hakimlər irəli çəkilmələri, vəzifələrindən azad edilməsi və hesabatlılığı baxımından daima iqtidarın maraqlarına xidmət edib. Ədalət mühakiməsini həyata keçirə, insanları, o cümlədən öz hüquqlarını hökumətin və onunla əlaqəli olan şəxslərin zülümlərindən qorumaq iqtidarında olmayıblar. Məhkəmələrdə korrupsiyanın yüksək səviyyədə olması cəmiyyətin bu quruma qarşı inamının azalmasına səbəb olub”.

### Azərbaycan müxalifəti təxribatçı şəbəkənin iştirakçısına çevrilib

Azərbaycan cəmiyyəti bu təşkilatın erməni lobbisinin əlində Azərbaycana qarşı bir istifadə olunan alət olduğunu çox yaxşı bilir. Ona görə də, Azərbaycan cəmiyyəti bu təşkilatın yaydığı hesabatları ciddi sənəd kimi qəbul etmir. Amma AXCP, Müsavat və ”Milli Şura” rəhbərliyi bunun fərqində deyillər. Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış edirlər. Hətta bəzən bunu dolayısı ilə göstərirlər də. Nədinədi, sözügedən təşkilatlar onlara maliyyə yardımları ayırır. Məhz pul xətirinə müxalifət Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı mübariz metodu seçirlər. Artıq sübut olunub ki, Sorosun ayırdığı pullar hesabına doymuş məhlula çevrilən AXCP və Müsavat rəhbərliyi müəyyən sayda gənci "siyasi mühacir" adı altında xarici ölkələrə göndərib. Sonradan xaricə üz tutan gənclər səhvlərini başa düşüb, onları gedər-gəlməzə yola salan müxalifət liderlərini ifşa ediblər. Məlum olub ki, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı 2500-3000 manat pul almaqla, onlara partiya vəsiqəsi verərək, həmin şəxsin guya mitinqlərdə polislər tərəfindən təzyiqlərə məruz qaldığını qeyd ediblər. Bu ifşaedici faktlardan sonra da sözügedən partiya sədrlərinin öz bəd əməllərini davam etdirməri o fikri yaradır ki, bu adamlar əxlaqdan və mənəviyyatdan, həqiqətən də, uzaqdırlar. Məhz bu amil onları məhvə sürükləyir. Proseslər və araşdırmalar da təsdiq edir ki, bu gün müxalif düşərgə ən acınacaqlı günlərini yaşamaqdadır. Növbəti parçalanmalar və qopmalara da qaçılmazdır. Bununla belə, müxalifətdə belə parçalanmaların baş verməsinin hazırkı şəraitdə qarşısını almaq da mümkün deyil. Çünki uzun illərdən bəri yığılıb qalmış intriqalar, dedi-qodular birgə addımlamağa və konkret məqsədlər uğrunda mübarizə aparmağa imkan vermir. Bu reallığı dərk edən müxalifətin ayrı-ayrı isimləri sifarişlər əsasında erməni maraqlarına xidmət edən açıqlamalar verir, sosial şəbəkələrdə statuslar paylaşırlar. Lakin görünən ondan ibarətdir ki, Azərbaycanın dağıdıcı müxalifəti iflasa məhkumdur. Çünki C.Soros yoxdursa, deməli, pul da olmayacaq. Yəni hazırkı dönəmdə müxalifət başsız qalıb.

**İ.ƏLİYEV**

TƏHLİL

## “Üçtərəfli görüşdən nəticənin gözlənilməsi real deyil”



MÜNASİBƏT

“İyun ayının 1-də Kişinyovda Avropa İttifaqı siyasi birliyinin növbəti ikinci toplantısının keçirilməsi gözlənilir. Konfransı ötən ilin oktyabrda ilk dəfə Praqada keçirilən bu konfransın növbəti mərhələsi kimi qiymətləndirilməlidir. Hesab edirəm ki, Azərbaycan və Ermənistan liderləri də o görüşdə məsələləri növbəti dəfə müzakirə etmək və narahatlıq doğuran məsələlərin gündəliyə çıxarılması imkanları əldə edəcəklər. Bu görüşdə Fransa və Almaniya liderinin də iştirakı nəzərdə tutulub”. Bunu politoloq Anar Əliyev ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu görüş müzakirə formatı deyil, sadəcə, Avropa siyasi birliyi çərçivəsində liderlər arasında növbəti görüş imkanıdır: “Bildiyiniz kimi, Prezident İlham Əliyev də hər zaman Azərbaycanın haqlı mövqeyinin müdafiə olunması və ifadə olunması üçün bütün platformalardan, görüşlərdən istifadə etməyə çalışıb. Bizim çəkinəcəyimiz, qorxacağımız və ehtiyat edəcəyimiz heç bir məsələ olmadığı üçün istənilən görüşdə mövqeyimizi ifadə etməyə hazırıq. Hesab edirəm ki, iyun ayının 1-də keçiriləcək görüşü bu istiqamətdə növbəti addımlardan biri kimi qiymətləndirilə bilər. Digər tərəfdən orada Fransa ilə yanaşı Almaniya liderlərinin də iştirakı onu da göstərir ki, bəli, burada Fransa təkbaşına moderator və vasitəçi rolunda çıxış edə bilmir. Yəni, istəyini reallaşa bilməyibdir. Hətta adi görüşdə belə öz istəyini qəbul etdirə bilməyibdir. Eyni zamanda, bir məsələni də qeyd etmək istəyirəm ki, Azərbaycanın Fransanın vasitəçi rolundan birmənalı olaraq imtina etməsinin çox ciddi hüquqi əsasları mövcuddur və bunu biz dəfələrlə bəyan edirik. Çünki beynəlxalq hüquqda və beynəlxalq terminalogiyada münasibətlərin tənzimlənməsinin münaqişə edən tərəflər arasında münasibətlərin qurulmasının bir neçə alternativ yolları mövcuddur ki, onlardan bir də arbitrajın seçilməsidir. Beynəlxalq terminalogiyada açıq mətnlə qeyd olunur ki, arbitir ona müraciət edən münaqişəli tərəflərin münasibətlərinin normallaşmasına hər hansı bir ilə xüsusi ünsiyyətdə olmamalıdır. İndiki halda isə Fransa həm Ermənistanla həm də Azərbaycanla xüsusi fərqli ünsiyyətdir. Yəni Ermənistana münasibətdə özünü böyük bacı kimi göstərir və onun hüquqlarının müdafiəçisi kimi çıxış edir. Azərbaycana münasibəti isə demək olar ki düşmən mövqeyindədir və münasibətlərin gərginləşməsinə xidmət edən davranışlar nümayiş etdirir. Azərbaycanın haqlı mövqeyinin güclənməsinin qarşını ala biləcək, ona zərbələr vura biləcək qanuna zidd davranışlar, bəyanatlar səsləndirir. Hesab edirəm ki, bu anlayış beynəlxalq hüquqla və beynəlxalq terminalogiya ilə Fransanın arbitir rolunu birmənalı şəkildə inkar edir”.

Anar Əliyev onu da qeyd etdi ki, Fransanın özünə hörmət etməsi və beynəlxalq imicini nəzərə alması və könüllü şəkildə vasitəci iddialarından geri çəkilməsi lazımdır: “Bunu isə indiki Makron adminstrasiyasından gözləmək təəssüf ki o qədər də inandırıcı deyil. İyun ayının 1-də keçiriləcək görüş çərçivəsində Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasını bu baxımdan real hesab etmirəm. Çünki kifayət qədər Ermənistan tərəfinin əsasız iddiaları və sülh danışıqlarından yayınma ritorikasını, təcrübəsini biz müşahidə etmişik. Hesab edirəm ki, bu görüş çərçivəsində Ermənistan yenə də müxtəlif əsassız təhrikedici fikirlərlə, təkliflərlə, tələblərlə sülh gündəliyini pozmaq, dəyişmək və proseslərin tənzimlənməsinə mane olmağa çalışacaq. Xüsusilə nəzərə alsaq ki, həmin görüşdə Ermənistana dəstək verən bir qüvvədə orda təmsil olunur. Belə bir vəziyyət münasibətlərin tənzimlənməsinə deyil, gərginləşməsinə xidmət edən mövqeləri biz orda eşidə biləcəyik. Bu mənada hesab edirəm ki, iyun ayının 1-də keçirilməsi gözlənilən görüş çərçivəsində Ermənistanla Azərbaycan arasında nəinki sülh müqaviləsinin, hətta ilkin ciddi şərtlərin belə razılaşdırılmalısı o qədər real görünmür”.

**GÜLYANƏ**

# İrandan badalaq

## *Tehranın Şimal-Cənub dəmiryolu layihəsinə təxribatına Rusiyadan cavab*




***Azərbaycanın uğurla reallaşdırılan əsas transmilli layihələrdən biri də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizidir. Bəribaşdan qeyd edək ki, Bakı bu layihə üzrə bütün tapşırıqları yüksək səviyyədə həll edib. Rusiya tərəfi də infrastruktur layihəsi üzrə öhdəliklərə sadiq olduğunu əməli ilə nümayiş etdirib. Layihənin dəmir yolu hissəsinin Azərbaycan ərazisində inşası tam yekunlaşıb. İran ərazisində də dəmir yolu xəttinin inşası başa çatdıqdan sonra layihə tam gücü ilə işə düşəcək.***

Avtomagistrlal hissədə də işlər intensivləşib. "Şimal-Cənub" dəhlizinin tərkib hissəsi olan Bakı–Quba–Rusiya boyu uzanan yeni avtomobil yolunun tikinti işləri sürətlə həyata keçrilir. Layihələndirilən magistral yol əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir. Yeni yolun tikinti layihəsinə uyğun olaraq, əsas qəsəbə və rayon mərkəzlərindən magistrala giriş-çıxış yolları çəkiləcək. Yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırılması ilə yanaşı, bölgədə turizmin inkişafına da əlavə təkan verəcək, "Şimal-Cənub" dəhlizi ilə yük və sərnişin daşımalarında əsas rol oynayaraq, ölkəmizin iqtisadi maraqlarına uyğun olaraq yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb olunmasına, yük həcminin çoxalmasına və gəlirlərinin artmasına rəvac verəcək.

"Şimal-Cənub" layihəsinin iştirakçılarına da daxili və xarici siyasətlərini əlaqələndirmək, maksimum səmərəli əməkdaşlıq və gələcəyi birgə qurmaq düşür. İndiki mərhələdə ölkələrimizin aşkar yaxınlaşması çox cəhətdən məhz bu meqalayihə üzərində işlə bağlıdır. Həmin meqalayihə Rusiya üçün geosiyasi baxımdan - siyasi və iqtisadi təsir vektorlarının şaxələndirilməsi vasitəsi kimi, Azərbaycan üçün isə iqtisadi baxımdan - öz mallarının yeni bazarlara, ilk növbədə, Avropa bazarlarına çıxarılması yolu kimi, habelə respublikanın regionda ən mühüm qovşağa çevrilməsinə kömək edən amil kimi əhəmiyyətlidir.

Rusiya ilə İran arasında strateji tərəfdaşlıq sazişi iki ölkə arasında 2001-ci ildə imzalanan əməkdaşlıq sazişini əvəz etməlidir. Bu müddətdə İran Rusiyanın tərəfdaşından strateji tərəfdaşına çevrilib. Ona görə də Moskva və Tehran yeni sazişə ehtiyac duyurlar. Bu məqsədlə İran ərazisində 2025-ci ilə qədər Rəşt-Astara dəmiryolu tikilməlidir. Ancaq Moskvanın bu planları hazırda təhlükə altındadır. Çünki İranın Azərbaycana qarşı artan təxribatları iki ölkə arasındakı münasibətləri gərginləşdirib. Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini dayandırıb. Tehran Azərbaycanın İsraillə artan əməkdaşlığının əleyhinə açıqlamalar verməkdə davam edir. Belə vəziyyətdə Azərbaycandan da keçəcək Şimal-Cənub nəqliyyat dəhlizinin perspektivi suallar doğurur. Bu layihənin işə düşməsi üçün İran Azərbaycana qarşı təxribatları dayandırmalı və münasibətlərin normallaşdırmasına çalışmalıdır. Ancaq Tehran bunları etmir.

Rusiya və İran hökumətləri hər iki ölkənin prezidentləri Vladimir Putin və İbrahim Rəisinin iştirakı ilə Rəşt-Astara dəmir yolunun yaradılması üçün malların və xidmətlərin layihələndirilməsi, tikintisi və təchizatının maliyyələşdirilməsi üzrə əməkdaşlıq haqqında saziş imzalayıblar. Rusiya Federasiyası bunun üçün 1,3 milyard avro dövlətlərarası kredit ayırmağı düşünür, layihənin ümumi dəyəri isə 1,6 milyard avrodur. Bunun 85%-i dövlətlərarası kreditdir, təbii ki, bu layihənin geri qaytarılma müddəti ərzində ödənilməlidir. Rəşt-Astara, Şimal-Cənub İTC-nin qərb qolunun bir hissəsi kimi ölkənin Azərbaycan və Rusiya ilə dəmir yolu əlaqəsini yaratmaq üçün lazım olan 162 km uzunluğunda İran ərazisində dəmir yollarının çatışmayan hissəsidir. İndi mallar avtomobil yolu ilə daşınır.

Həmçinin, İTC çərçivəsində İran və Rusiyanın Xəzər limanlarında şərq marşrutu (Xəzərdən yan keçən İran, Türkmənistan və Qazaxıstan ərazisindən keçən quru marşrutu) və transxəzər dəhlizi də var. Bütün bu dəhlizlər üzrə dəmir yolu daşımaları artır. Birinci rübdə qərb marşrutu üzrə nəqliyyat hər il iki dəfə artaraq Transxəzər boyu 2,2 milyon tona çatıb. Şərq marşrutu üzrə də iki dəfə artaraq 234,8 min tona çatıb.

Rəşt-Astara hissəsinin kombinə edilmiş qaimə üzərində qurulması qərara alınıb: həm 1435 millimetrlik (Avropa və İranda qəbul edilmiş), həm də Rusiyanın 1520 millimetrlik kalibrinin döşənməsi planlaşdırılır, lakin İlk olaraq Avropa ölçüləri qoyulacaq. Onun sözlərinə görə, İran tərəfi tikinti müddətini 4 ilə hesablayıb, lakin bu müddət azaldıla bilər. O bildirib ki, yolu Rusiya və İran çəkəcək. Rusiyanı hansı təşkilatın təmsil edəcəyi açıqlanmayıb, Rusiya Dəmir Yolları açıqlama verməyib.

Hissə başa çatdıqdan sonra təkcə İranla dəmir yolu ilə yük dövriyyəsinin ümumi həcmi ildə ən azı 15 milyon ton olacaq, bu, yalnız tranzit yüklərə aiddir. Yük dövriyyəsinin bu səviyyəyə 2030-cu ilə qədər çatacağı qeyd edilir.

Rəşt-Astara hissəsinin tamamlanması ilə bağlı danışıqlar 20 ildən artıqdır ki, davam edir. Şimal-Cənub İTC-nin yaradılması haqqında saziş 2000-ci ildə, İran, Rusiya və Azərbaycan arasında xəttin, o cümlədən Rəşt-Astara hissəsinin tikintisinə dair saziş 2005-ci ildə imzalanıb. 2018-ci ildə Azərbaycan ərazinin tikintisi üçün İrana 500 milyon dollar kredit ayırıb. Amma Qərbin İrana qarşı sanksiyaları üzündən bu pullar xərclənə bilməyib. İran ərazinin coğrafiyasını əsas tikinti problemlərindən biri adlandırıb, həmçinin Xəzər sahilində Ənzəlidən Astaraya qədər olan ərazinin fiziki şəxslərə məxsus olması və kurort dəyərinə malik olması onun satınalma xərclərini artırır.

İran prezidenti vurğulayıb ki, qərb qolunun yeni bölmə ilə layihəsi Rusiya Federasiyası ilə əməkdaşlıq üçün mövcud variantlardan yalnız biridir. "İran, Pakistan və Türkiyə arasında başqa bir layihə də var. Biz İran və İraq arasında dəmir yolu infrastrukturunu gücləndirməliyik. Bütün səylər bu yolun tikintisinə hesablanıb. Marşrut Fars körfəzindəki Çabahar limanından Xəzər dənizinə, oradan isə Rusiya Federasiyası ərazisindən keçərək Avropa marşrutu ilə keçəcək. Bütün bunlar Rusiya Federasiyası kimi böyük ölkə ilə əməkdaşlığın mümkün variantlarıdır".

Hindistan şirkətlərinin hesablamalarına görə, bu gün Çabahar limanından Astaraya, oradan isə dəmir yolu ilə Azərbaycandan keçməklə Rusiya Federasiyasına avtomobil yolu ilə çatdırılan marşrut artıq sərfəlidir. Bu variantda Astara rayonundan bir neçə kilometr istisna olmaqla, İrandan keçən yüklər Azərbaycanla sərhədə qədər demək olar ki, yalnız avtomobil yolu ilə gedir.




Rusiranexpo-nun rəhbəri Aleksandr Şarovun sözlərinə görə, Rəşt-Astara hissəsi sadəcə olaraq lazım deyil: ilin sonuna qədər Naxçıvandan keçən dəmir yolu dəhlizi tamamlana bilər ki, bu da mövcud yük daşımalarını 5-ə qədər təmin etməyə qadirdir. Qərb qolu boyunca ildə 7 milyon ton, tunellər və körpülər olmadan cəmi 80 km-ə yaxın çəkmək lazımdır.

Bundan əlavə, o qeyd edir ki, indi Rusiya logistika operatorları da Şimal-Cənub İTC-nin şərq qolu boyunca güzəştli tariflə yükləri sərbəst daşıyır və 5 milyon tondan 20 milyon tona yüksəldilməsi üçün yük bazası axtarırlar.

Eyni zamanda, Şarov deyib ki, İran dəmir yollarının inkişafında maraqlıdır. Xüsusilə, ölkədə dəmir yolu daşımalarının subsidiyalaşdırılması üzrə dövlət proqramı var ki, ondan düzgün istifadə etməklə vaqonlar cəmi iki ilə öz bəhrəsini verir. Və əgər Rusiya operatorları İran bazarına daxil olsalar, onlar təxminən 20-40 milyon ton İrandaxili və ixrac-idxal dəmir yolu daşımalarını öz üzərinə götürə biləcəklər.

Son zamanlar İran tərəfi sanki bu layihənin dayandırıldığı düşüncəsi ilə hərəkət edir, Azərbaycanla münasibətlərinin bir daha düzəlməyəcəyi ab-havası ilə yaşayır. Ona görə də yerli turizmə və ekologiyaya ziyanı bəhanə edərək layihənin icrasından qaçır. Amma nə vaxta qədər? Nəzərə alsaq ki, Rusiyaya çıxış üçün İran Türkmənistan-Qazaxıstan marşrutuna üstünlük verir, amma Rusiyanın maraqlarını nəzərə almaması rəsmi Tehranın arzularını gözündə qoyur.

***V.VƏLİYEV***



**Elçin Bayramlı**

# Qida terroruna qarşı ən effektiv mübarizə üsulu

***Dünyada kolbasa məhsullarının istehlakı ildən-ilə artır. Ərzaq qiymətlərinin artması bir çoxlarını öz ərzaq səbətinə yenidən baxmağa vadar etsə də, emal olunmuş ət məhsulları öz mövqelərini itirmir. Bu, gündəlik həyatda sürətli qəlyanaltı və əksər bayramların məcburi atributudur.***

Mağazaların piştaxtalarda həm yerli, həm də xaricdən gətirilən kolbasalar var. Qiymət diapazonu genişdir, lakin məlum səbəblərdən əksəriyyət ucuz qiymət seqmentinə üstünlük verir, baxmayaraq ki, belə məhsullarda yaxşı heç nə olmadığını və ola da bilməyəcəyini başa düşürlər. Əlbəttə, bahalı kolbasa da faydalı deyil, lakin nisbi götürdükdə təhlükəsi daha yaxşıdır.

Bu yaxınlarda Qida Təhlükəsizliyi Agentliyi kolbasa məhsullarının keyfiyyətinə dair monitorinqin nəticələrini açıqlayanda məlum oldu ki, bir çox kolbasalarda üzərində qeyd edilmiş mal əti əvəzinə toyuq ətidir, bəzilərində isə ümumiyyətlə ət yox idi. Ət bazarında periodik olaraq mənşəyi məlum olmayan ətlərə və ölmüş heyvanların ətinə rast gəlinir və çox vaxt ondan kolbasa istehsalı üçün istifadə olunur.

Bundan başqa, kolbasalara yan məhsullar- sümüklər, dəri, GMO soya, nişasta, hər cür ləzzət artırıcılar, boyalar, konservantlar vurulur ki, bunlar leş ətindən daha təhlükəlidir.

Bir kiloqram kolbasa bir kiloqram ətdən ucuz olanda sual doğurmaya bilməz. Burada əsas xammalın- ətin xərcindən başqa, məhsulun maya dəyərinə əlavə olunan istehsal, nəqliyyat, vergilər, işçilərin əmək haqqını, satış dividentini də nəzərə almaq lazımdır. Üstəlik, şirkət qazanc da əldə etməlidir. Bu o deməkdir ki, siz məsələn, 10 manata kolbasa alırsınızsa, demək onun ilkin maya dəyəri 5 manatdır.

Vicdansız istehsalçılara qarşı pul cəzalarını təsirli adlandırmaq olmaz. Çünki onlar cərimənin məbləğindən 10 dəfə çox qazanırlar. Bizə işləyəcək mexanizmlər lazımdır. Maraqlıdır, kolbasa dükanlarının sahiblərinə öz məhsullarını canlı yemək təklif olunursa, bunu edəcəklərmi? Mən təklif edirəm ki, televiziyaların birində bir canlı yayım verilişi təşkil olunsun, kolbasa sexlərinin sahibləri orada öz məhsullarını yesinlər və əhali də baxsın. Amma kolbasa mağazalardan alınmalı, özləri ilə gətirməməlidirlər. Əminəm ki, bunu etməzlər, heç bir kolbasa istehsalçısı öz məhsulunu yeməz.

Bəs belə isə, əhaliyə bu məhsulları necə yedirdirlər? Çox rahat. Bazar iqtisadiyyatı yalnız gəlir əldə etməyə hesablanıb. Necə deyərlər, biznesin vicdanı olmur. İstehsalçını, sahibkarı yalnız bir məsələ maraqlandırır- daha çox qazanc əldə etmək. Əhalinin sağlamlığı, filanı lazımsız məsələlərdir. Vicdan anlayışı isə biznesdə yoxdur.

Burada yeganə təsirli üsul belə müəssisələr üzərinə şəffaf və daimi nəzarət mexanizminin qurulması, medianın və ictimai təşkilatların nəzarətinin təmin edilməsidir. Bunun üçün ölkədə müstəqil laboratoriyalar olmalıdır. İstənilən istehlakçı məhsulu laboratoriyada yoxlada bilməli və zərərli olduğunu görərsə istehsalçını məhkəməyə verib ağır təzminat ödətdirməlidir. Əksər ölkələrdə belədir. Məhz bu səbəbdən, başqa ölkələrdə saxta və keyfiyyətsiz məhsul istehsal etmək sadəcə olaraq sərf etmir, çünki təzminat qazancdan dəfələrlə artıq olur.

Nə qədər ki bizdə belə sistem qurulmayıb, istehsalçılar əhaliyə hər cür təhlükəli zir-zibili qida adına yedirəcəklər. Nəticədə genefondumuz sıradan çıxacaq, ölkə ağır xəstələrlə dolacaq. Bu isə artıq milli təhlükəsizlik məsələsidir. Qida terroru hazırda ən amansız terror vasitəsidir və buna qarşı dövlət və cəmiyyət birgə döyüşməlidir.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Evdəki təhlükə: Uşaqları necə qoruyaq?

***Gözümüz kimi baxdığımız, hər addımını izlədiyimiz uşaqlar bəzən evdə elə qəzalar törədir ki, nəticəsi həm özlərinə zərər verir, həm də valideynlərə qorxu yaşadır. Amerikada aparılan bir araşdırma zamanı məlum olub ki, ev qəzalarının 79 faizi böyük evlərdə və valideynlərlə uşaqlar ayrı-ayrı otaqlarda olarkən baş verir.***

### Təzadlı faizlər maraq doğurur

Təcili yardıma müraciət edilən 86 zəhərlənmə hadisəsini araşdıran araşdırmaçılara məlum olub ki, hadisələrin demək olar ki, hamısı uşaq valideynlərinin olmadığı otaqda tək olarkən baş verib. Daha çox 5 yaşınadək olan uşaqların ev qəzalarına məruz qaldığı məlum olub. Hadisələrin 79 faizində valideynlər başqa otaqda olub, 93 faizində ailənin öz evində baş verib, 89 faizində uşaqlar televizor izləyərkən qəza törədir, 36 faizində uşaq valideynlərin yanından qonşu otağa keçib qəza törədib, 87 faizində valideynlərin başı ev işinə qarışıb.

Qeydə alınan qəzaların 59 faizində zəhərlənməyə yol açan kimyəvi maddə uşağın əli çatan yerdə saxlanılıb, yalnız 28 faizində uşağın çətin əldə edəcəyi yerdə saxlanılır. Qeydə alınmış zəhərlənmələrin 31 faizində uşağın kimyəvi maddəni əldə etmək üçün bir əngələ rast gəlmədiyi məlum olub, 36 faizində bu maddələr mətbəx stolunun üstündə və ya hamam dolablarının alt gözlərində saxlanılıb. Zəhərlənmə hadisələrinin 57 faizi kimyəvi maddələr bərk bağlanmış qabların içində saxlanmasına baxmayaraq baş verib.

### Texnologiya uşaqları hədələyir

Ev qəzalarında ən çox zərər verən texnika isə fırlanan motoru olan aparatlar, isitmə və qurutma aparatları, sobalar, pəncərə və qapı şüşələri, elektrik paylayıcıları, naqillərdir. İndi evlərimizdə bir çox texnikanın köməyi ilə yaşayırıq, çörəyi sobada bişirik, paltarı ütü ilə ütüləyirik, uşaqlara meyvə şirəsini özümüz mətbəx robotu ilə hazırlayırıq, əti iti bıçaqlı maşında özümüz qiymə edirik, paltaryuyan maşın uşaqların əli rahatlıqla çatan yerdə quraşdırılır, bütün evlərdə elektrik paylayıcıları uşaqların əli çatan yerdədir. Kimyəvi dərmanlar, yuyucu tozlar, sabun və şampunlar üçün gizli dolablarımız demək olar ki, yoxdur.

Evlərdəki qəzalar, adətən, kimyəvi maddədən zəhərlənmə, hündürlükdən yıxılma, hamam vannasında boğulma, yanğınlardır. Evdə uşaqlar üçün təhlükə kəsb edən yerlərdən biri də pilləkanlardır. 1995-ci ildə İngiltərədə aparılan bir araşdırmada 2.5 milyon yaralanma və 4 min ölümün ev qəzaları səbəbi ilə olduğu məlum olmuşdu. Bu yaralanmalardan 230 mini, ölümlərdən isə 497-si pilləkəndən yıxılaraq zədə alanlar olub.



### Ən təhlükəli yer mətbəxdir

Evdə, əsasən, mətbəx və hamam qəza çox olan yerlər hesab edilir. Mətbəxdə sobaya yaxın yerlərdə tez alışan, istiliyə dözümü olmayan materiallardan hazırlanmış avadanlıqlar yanğına səbəb ola bilər. Bundan əlavə divara bərkidilmiş dolablar da təhlükə mənbəyidir, dolablar hər an yerindən çıxıb yaxınlıqdan keçən uşağın üzərinə düşə bilər və bir qədər araşdırma etdikdə, belə halların həqiqətən baş verdiyini də görə bilərsiniz.

Mətbəxinizdə övladınız üçün təhlükə kəsb edən ən birinci yer qaz sobasıdır. Soba nə pəncərəyə, nə də qapıya yaxın olmamalıdır. Əks halda evə azacıq külək dolduğu zaman pərdələr sobaya yaxınlaşa və yanğına səbəb ola bilər. Uşaqların mətbəxdə oyun oynamasına icazə verməyin, burda həm üst dolabların düşmə təhlükəsi var, həm qaz sobası ilə kontakt ola bilər, həm də kəsici-deşici alətləri götürə bilərlər. Mətbəxdə daimi işlətdiyimiz elektrik avadanlıqları da onlar üçün təhlükə mənbəyidir.

Adətən, mətbəx dolablarının birində və yaxud soyuducuda saxladığımız dərmanlar da uşaqlar üçün təhlükəlidir, dərman şüşələrini və qutularını onların əli çatmayan yerdə saxlayın. Balkonlar uşaqların sevdiyi yerdir, çalışın balkon qapısını daima bağlı saxlayın, indi bir çox ailə dəmir barmaqlıqlarla körpələri bu təhlükədən də sığortalayır.



### Hamamı unutmayın

Hamamda döşəməyə vurulan sürüşkən materiallı kafellər qəzalara səbəb ola bilər. Bu cümləni yaza-yaza xatırlayıram, azyaşlı olmamağıma baxmayaraq mən də dəfələrlə hamamın nəm döşəməsində sürüşərək zədə almışam. Bu səbəbdən də hamam otağı üçün altı sürüşkən olmayan başmaqlardan istifadə etmək qəzalardan qoruya bilər. Hətta bir dəfə azyaşlı oğlum 1 dəqiqəlik tək qalmağından istifadə edərək hamam vannasının içində olanda saç qurutmaq üçün istifadə etdiyimiz feni elektrik paylayıcısına qoşaraq su dolu vannaya salmışdı, nəticədə həm özünə, həm də bizə dəhşət dolu gün yaşatdı, xoşbəxtlikdən xətərsiz ötüşdük.

Dünya ölkələrinin hər birində orta hesabla ildə 1500-2000 uşaq ev qəzalarında ölür. İnkişaf etmiş ölkələrdə hər 100 uşaqdan biri diqqətsizliyin qurbanı olaraq ev qəzalarında can verir. Uşaqların həyatının yarıda qırılmaması, şikəst qalmaması üçün valideynlərdən çox şey asılıdır, ilkin müdaxilə bəzən can qurtarırsa, bəzən körpəyə zərər vurur. Xüsusilə də, kimyəvi maddə içmiş uşağı qusdurmağa çalışan valideynlər bilməlidir ki, əgər azyaşlı uşaq diqqətsizlikdən faydalanaraq kimyəvi dərman içibsə, onu qusdurmaq olmaz, bu qida borusunun iki dəfə yanmasına səbəb ola bilər. Ediləcək ən vacib hərəkət təcili yardıma zəng vurmaq və onlardan telefonla təlimat almaqdır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
Səs
20 may
2023-cü il

# Ölkəmizdə kimlərə ömürlük həbs cəzası verilir?

***“Ömürlük azadlıqdan məhrum etmə yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir”. Bu sözləri SİA-ya açıqlamasında Vəkillər Kollegiyasının üzvü, vəkil Fərid Məmmədli deyib.***



VƏKİL AÇIQLADI

Onun sözlərinə görə, ömürlük azadlıqdan məhrum etmə qadınlara, cinayət törədərkən 18 yaşı tamam olmamış şəxslərə, habelə hökm çıxarılanadək 65 yaşına çatmış kişilərə təyin edilmir: ”Həmçinin cinayətə hazırlığa və ya cinayət etməyə cəhdə görə ömürlük azadlıqdan məhrum etmə növündə cəza təyin edilmir.

Cinayət Məcəlləsinin bir çox maddələrinin sanksiyasında ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. Əsasən təcavüzkar müharibəni aparma, soyqırım, əhalini məhv etmə, əhalini deportasiya etmə və ya məcburi köçürmə, cinsi zorakılıq, insanları zorakılıqla yoxa çıxarma, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, dövlətə xəyanət, silahlı qiyam və s. kimi cinayət əməllərinə görə ömürlük azadlıqdan məhrum etmə cəzası təyin edilir”.

Fərid Məmmədli sözlərinə belə davam edib: ”Ömürlük azadlıqdan məhrum edilmiş şəxslər cəzalarını xüsusi rejimli həbsxanalarda çəkirlər. Məhkəmə, ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrum etmənin ən azı 25 ilini həqiqətən çəkdiyini, həmçinin onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlük azadlıqdan məhrum etmə cəza növünü on ilədək azadlıqdan məhrum etmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər.

Həmçinin ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında 25 ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər”.

***Ayşən Vəli***



# Bankların bağlanması əmlaklara necə təsir edəcək?

***“1992-ci ildən müstəqillik qazanmış ilk banklardan biri olan “Günay Bank”ın fəaliyyəti ilə bağlı məsələni mediadan izlədik. Doğrudur, digər dövlət və konversiya banklarından nizamnamə kapitalı az olsa da, 21 illik fəaliyyəti əks etdirir. Həmin bankın kredit portfeli o qədər böyük olmayıb. Lakin bir məsələ var ki, ictimaiyyətə verilən rəqəmlər əslinə uyğun gəlmir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov deyib.***

Onun sözlərinə görə, belə ki bankın hesabatlarında nizamnamə kapitalının 68 milyon manat dəyərində olduğu bildirilsə də, Mərkəzi Bank əsas gətirib ki, 50 milyondan aşağı vəsait olduğuna görə lisenziyası ləğv olunub: “Mərkəzi Bankın rəqəmlərində həmin sığortalanmış əmanətlərin miqdarı 99% göstərilsə də, 70 milyonluq sığortalanmamış məbləğ olduğu aşkardır. Belə hallarda əmanətlərin sığortalanması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılır. 90 gün müddətində əmanəti sığortalanmış şəxslər öz vəsaitlərini əldə edə bilirlər. Əmanətini sığortalamayan şəxslər geri dönüş kredit məbləğləri hesabına praktikada vəsaitlərini qaytara bilirlər. Amma burada müəyyən mənada çətinliklər var. Xatırlayırsınızsa, Beynəlxalq Bank borcu olan banklardan biri idi. Həmin bankın borcları dövlət hesabına qarşılandı. Amma uzun müddətdir fəaliyyət göstərən “Günay Bank”ın nizamnamə kapitalına möhlət verilmədi. Düşünürəm ki, belə məsələlərlə bağlı Mərkəzi Bank üzərinə düşən vəzifəni yerinə yetirməlidir”.

***Ləman Əlizadə***

# “Barselona” bu futbolçulara qapını göstərir!




Bu mövsüm İspaniya çempionluğunu qazanan və heyəti daha da gücləndirmək istəyən ”Barselona” bir neçə futbolçu ilə yollarını ayırmaq istəyir. Belə ki, bu futbolçular baş məşqçi Xavi Hernandesin yeni mövsüm üçün planlarında yer almırlar. Klement Lenqlenin ”Tottenhem”ə transferi üçün danışıqlar inkişaf mərhələsindədir. Bu mövsümü ”Milan”da keçirən Serjinyo Dest üçün yeni klub axtarılır. Eyni zamanda, Niko Qanzalesin yayda satılacağı da istisna edilmir.

# AzerTelecom-un Baş İcraçı Direktoru dünyanın nüfuzlu telekommunikasiya liderlərinin “Power 100” siyahısında

AzerTelecom şirkətinin Baş icraçı direktoru Ana Nakaşidze nüfuzlu Capacity Media nəşrinin hər il tərtib etdiyi və telekommunikasiya sənayesinin ən nüfuzlu liderlərinin yer aldığı “Power 100” siyahısına daxil edilib. Telekommunikasiya sənayesi tərəfindən irəli sürülən və Capacity Media tərəfindən tərtib edilən “Power 100” siyahısı qlobal rəqəmsal infrastruktur məkanlarını idarə edən qabaqcılları, innovatorları və liderləri təqdim edir. Artıq beşinci ildir ki, siyahı bu sahədə nüfuzlu liderlərin kim olduğunu göstərir.

Ana Nakaşidze pandemiya və ondan sonrakı transformasiya, eləcə də müxtəlif çağırışlarla zəngin olan dövrlərdə şirkətə rəhbərlik edərək şirkətin fəaliyyətində mühüm uğurlara imza atıb. Onun rəhbərliyi sayəsində AzerTelecom şirkəti fəaliyyətində yeni inkişaf səviyyəsinə nail olmaqla xidmət portfelini genişləndirib və beynəlxalq bağlantı xidmətlərinin gücləndirərək hazırda ölkənin telekommunikasiya sahəsində mühüm rol oynayır.

Qeyd edək ki, xanım Nakaşidze telekommunikasiya sənayesində 20 ildən artıq zəngin təcrübəyə sahibdir. 2020-ci ildə AzerTelecom şirkətinin Baş icraçı direktoru vəzifəsinə təyin olunmazdan əvvəl Ana Nakaşidze AzerTelecom şirkətində Baş direktorun Əməliyyatlar üzrə müavini vəzifəsində çalışıb və Gürcüstanda, eləcə də qlobal miqyasda dövlət, özəl və konsaltiq sektorlarda müxtəlif rəhbər vəzifələri tutub.

Onu da bildirək ki, Ana Nakaşidze “Capacity Media” jurnalının bu ilin mart ayında tərtib etdiyi və telekommunikasiya və informasiya texnologiyaları sahəsində 20 görkəmli qadının yer aldığı sayca altıncı illik “Women to Watch” siyahısında da yer alıb.Telekommunikasiya məkanında topdansatış operatorları üzrə ən yaxşı 100 liderin yer aldığı Capacity Media-nın “Power 100” siyahısı ilə buradan tanış ola bilərsiniz. AzerTelecom Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.




# Cenk Tosun daha 3 il “Beşiktaş”da!



İstanbulun “Beşiktaş” futbol klubu komandanın kapitanlarından sayılan Cenk Tosunla yeni müqavilə imzalamağa hazırlaşır. Bu barədə Milliyet.com.tr saytı xəbər yayıb. Məlumatda deyilir ki, “ağ-qaralar” 31 yaşlı futbolçu ilə 3 illik yeni müqavilə bağlamaq barədə razılığa gəlib. Bu mövsüm 31 qarşılaşmada 16 qol 3 məhsuldar ötürmə ilə yadda qalan C.Tosun 2018-ci ildə 25 milyon avro qarşılığında İngiltərə klubu “Everton”a transfer olunmuşdu.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000